# RƏSULLARIN MÜBARİZƏSİ

Allah əzəldən belə yazmışdır: “Mən və elçilərim hökmən qalib gələcəyik!” Həqiqətən, Allah Qüvvətlidir, Qüdrətlidir. (Mücadilə surəsi, 21)

HARUN YƏHYA

(ADNAN OKTAR)

# MÜNDƏRİCAT


ÖN SÖZ

RƏSULLARIN MÜBARİZƏSİ

Rəsulun seçilişi

- Rəsula iman edənlər

-Cahil cəmiyyətlərdə öndə gələnlər

Rəsulların istəyi: Allaha iman və itaət

Rəsullara qarşı çıxılmasının ardındakı səbəblər

-Öndə gələnlərin rəsulu təqdir edə bilməmələri

-Hz. Musa və Firon

Rəsullara qurulan tələlər

- Rəsullara atılan iftiralar

- Rəsula yönəldilən feli hücumlar

-İnkarçıların rəsullara qurduğu tələlər başdan pozulmuş olaraq qurulur

Allah bütün tələlərdən xəbərdardır

Rəsulun və möminlərin hücumlara qarşı rəftarları

- Rəsulun inkar edənlərlə mübarizə üsulları

- Rəsul və "Atalar dini" nümayəndələrinin mübarizəsi

- Rəsulların münafiqlərlə mübarizəsi

- Rəsulların əxlaqsızlıqla mübarizəsi

NƏTİCƏ

DARVİNİZMİN ÇÖKÜŞÜ

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə

etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# ÖN SÖZ

Allah, tarix boyunca yaşamış olan bütün cəmiyyətlərə Özünün razı olacağı əxlaqın nə olduğu, halal və haramlar, axirət həyatında həqiqi hüzura və xoşbəxtliyə necə çatılacağı kimi insan üçün zəruri olan hər cür məlumatı çatdıracaq rəsullar göndərmişdir. Quranda da xəbər verildiyi üzrə, bu rəsulların bütün davranışları, əxlaqi xüsusiyyətləri, möminlər üçün ən gözəl nümunədir. Bu səbəblə də hər mömin rəsulların yaşadıqlarını diqqətlə araşdırmalı və öyrənməlidir.

Rəsulların Quranda izah edilən mübarizələri də şübhəsiz bütün möminlər üçün işıqlandırıcı və yol göstəricidir. Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) son nəbi və son peyğəmbərdir; Allah, Ondan sonra başqa peyğəmbər göndərməyəcəkdir. Quranda, bu mövzu belə xəbər verilir:

**Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir. (Əzhab surəsi, 40)**

Ancaq Qurandakı, **"Yoxsa siz elə güman edirdiniz ki, sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlmədən Cənnətə daxil olacaqsınız? Onlara elə kasıblıq və xəstəlik üz vermiş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və onunla birlikdə olan möminlər də: "Allahın köməyi nə vaxt gələcək?" - dedilər..."** (Bəqərə surəsi, 214) hökmünə görə, rəsulların yaşadıqlarının bənzərlərini onun ardından gələn qövmlər də yaşamağa davam edəcək.

Peyğəmbərimiz (s.ə.v)-ə və digər peyğəmbərlərə ağılsız şəkildə düşmənçilik bəsləyənlər, onların təbliğ etdiyi haqq dinin yayılmasına öz ağıllarına görə mane olmağa cəhd edənlər, onların yolunu izləyən möminlərə qarşı da hərəkətə keçəcəklər. Necə ki, **"Allah sizə şəriət hökmlərini bəyan etmək, sizi özünüzdən əvvəlkilərin yollarına yönəltmək və tövbələrinizi qəbul etmək istəyir. Allah Biləndir, Müdrikdir."** (Nisa surəsi, 26) ayəsinə uygun, bütün müsəlmanlar buna şahid olacaqlar. Məhz bu səbəblə, Quranda izah edilən rəsul mübarizələrini diqqətli şəkildə araşdırmaq bütün iman edənlər üçün çox əhəmiyyətlidir.

Bu kitabda verilən nümunələrlə peyğəmbərlərin gözəl əxlaqları və səmimi səyləri bir daha xatırladılır. Peyğəmbər hekayələrində iman edənlər üçün əhəmiyyətli dərslər olduğu Quranda belə xəbər verilir:

Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. Bu Quran uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir.  (Yusif surəsi, 111)

# RƏSULLARIN MÜBARİZƏSİ

İnsanlar, həyatlarını istiqamətləndirmək üçün bir-birindən fərqli "yol göstərici"lər, rəhbərlər seçərlər. Bir çox insan üçün ən böyük yol göstərici, ailəsi və yaxın ətrafından başlayaraq, içində yaşadığı cəmiyyətdir. Bu kəslər dəyər mühakimələrini, nəyin doğru, nəyin səhv olduğunu bu cəmiyyətin ümumi düşüncəsinə görə təyin edərlər. Bəzi insanlar isə özlərinə yol göstərici olaraq ideologiyalara inanır; bəhsi keçən ideologiyaları çıxaran mütəfəkkirlərin "üstün" insanlar olduğunu, onların yolunu izləyərək doğruya çata biləcəklərini düşünərlər. Bəziləri isə, bütün bunları tanımadığı, yalnız öz ağıl və hisslərini yol göstərici olaraq qəbul etdiyi iddiasındadır.

Halbuki bütün bu sayılan düşüncələr ortaq səhv üzərinə quruludur. Bu düşüncələri daşıyan, (yəni özlərinə yol göstərici olaraq cəmiyyəti, bəzi "üstün" saydıqları insanları, ya da öz ağıllarını mənimsəyən) kəslər, çox əhəmiyyətli gerçəyi rədd edir ya da gözardı edirlər: İnsan yaradılmış varlıqdır və sahib olduğu hər şeyi özünü yaradana, yəni Allaha borcludur. Öz bədənini, ətrafını, səmanı, ya da var olan hər hansı bir şeyi bir az vicdanlı şəkildə araşdıran hər kəs, bunları Allahın yaratdığını açıq şəkildə görə bilər.

İnsanı Allah yaratmışdır və şübhəsiz bu yaradışın müəyyən məqsədi vardır. Bu gerçək Quranda, **"Biz göyü, yeri və onların arasında olanları əyləncə üçün yaratmamışıq"** (Ənbiya surəsi, 16) ayəsi ilə xəbər verilir. İnsanın yaradılış məqsədi, başqa ayədə də belə bildirilir:

**Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım. (Zəriyət surəsi, 56)**

İnsanın yaradılışının tək gerçək məqsədi Allaha qulluq etməsidir. Ancaq burada səhv anlamağa qarşı diqqətli olmaq lazımdır: İnsanın yalnız Allaha qulluq etmək üçün yaradılmış olması, yalnız bəzi ibadətləri etmənin yetərli olacağı mənasını verməz. Şübhəsiz Peyğəmbərimiz (s.ə.v)-in Əbu Hureyrə (r.ə)-dən rəvayət edilən; *"Beş vaxt namazlar, gələcək həftəyə qədər cümə, gələcək ilə qədər ramazan, böyük günahlardan çəkinilərsə, aralarındakı səhvlər üçün* kəffarədir." (Müslim) (Riyazü's Salihin, İmamı Nevevi, tərcümə edən: Mehmet Emre, Bedir nəşriyyat, s. 698) qüdsi hədisiylə əhəmiyyətini bildirdiyi 5 vaxt namaz ibadəti və oruc, zəkat, təsəttür kimi digər ibadətlər dəqiqliklə tətbiq olunmalı fərzlərdir və hər mömin bunları yerinə yetirməklə məsuldur. Ancaq Allaha qulluq etmək, həyatın hər sahəsini əhatə edər və əsl olaraq da, Allahı tanımaq, Ona yaxın olmaq və bütün həyatı Onun göstərdiyi yola görə davam etdirmək deməkdir. Bu şəkildə yaşayan, yəni yalnız Allaha qulluq edən bir insan, dünyanın ən gözəl, ən hüzurlu, ən zövqlü həyatını yaşayar. Çünki Allahın Qurandakı əmrlərinin hamısı çox asandır. İnsan

Allaha qulluq etməkdən zövq alacaq şəkildə yaradılmışdır və bunu etməklə da bu yaradılışına (fitrət) uyğun hərəkət etmiş olur. Quranda bu mövzu belə açıqlanır:

**Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir. (Rum surəsi, 30)**

Ayədə verilən məlumatlar son dərəcə əhəmiyyətlidir: İnsan, yalnız Allaha qulluq etmək üçün yaradılmışdır, yaradılışı (fitrəti) bu təməl üzərindədir. Allah onu yoxdan var etmiş, ona "Öz ruhundan üfləmiş", onu "bir damla sudan" (spermadan) insan halına gətirmiş və onu müvəqqəti müddət üçün dünyaya göndərmişdir. İnsana düşən, özünü Allahın yaratdığını bilmək və buna görə hər an Ona şükür etməkdir. Beləcə özü üçün müvəqqəti yurd olan dünyada Allahın göstərdiyi məqsədə uyğun olaraq yaşayacaq, yetişkinləşib öyrədiləcək və əsl yurduna, axirətə gedəcək. Məhz bu, insanın yaradılışına (fitrətinə) uyğun olaraq davranması deməkdir.

Ancaq Rum surəsinin 30-cu ayəsində, insanın fitrətinə yalnız Allaha qulluq etmək olduğu bildirilərkən eyni zamanda insanların çoxunun bu böyük həqiqətdən xəbərsiz olduqları da bildirilir. Başqa ayələrdə də Allah, insanın unutqan olduğunu xəbər verir. Nəfs insana öz yaradılışını və Allahın açıq-aşkar varlığını unutdurmağa çalışır. Bu səbəblə bir çox insan çox zaman tək başına Allahın fərqinə vara bilməz. Yaradılmış olduğunu və bu səbəblə də Yaradıcımız olan Allaha qarşı məsul olduğu həqiqətini görə bilməz. Quranda bu vəziyyət belə təsvir edilir:

**Məgər insan onu nütfədən yaratdığımızı görmür? Budur, o indi açıq-aşkar mübahisə edir. O Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu. O dedi: “Çürümüş sümükləri kim dirildə bilər?” De: “Onları ilk dəfə yaradan Özü onları diriltdəcəkdir. O, hər bir məxluquna yaxşı bələddir. (Yasin surəsi, 77-79)**

Quran əxlaqından uzaq yaşayan insanın nəfsi Allahın özünü yaratmış olduğunu unutmağa son dərəcə meyillidir. Allahı unutduğu anda isə, öz eqoist ehtirasları (nəfsi) dövrəyə girərək ona yeni saxta ilahlar göstərəcək. Bu adam artıq özünü yaradan və ayədə bildirildiyi kimi, **"düzgün adam edən"** (Kəhf surəsi, 37) Allaha deyil, ağılsız şəkildə başqa varlıqlara ibadət etməyə; onları məmnun etməyə, onlardan mədət ummağa, onları sevib, onlardan qorxmağa başlayır. Halbuki gözündə özünə görə guya ilahlaşdırdığı bu varlıqların hamısı da eyni özü kimi aciz və zəif quldur. Amma bəhs etdiyimiz insan yenə də ağlından istifadə edərək bu həqiqəti görə bilməz və bu xəyali ilahların arxasınca

qaçaraq cəhalətlə Allahdan üz çevirər. Bu tam mənasıyla nankorluqdur. Quranda bu vəziyyət belə ifadə edilir:

**Qoy ölsün kafir insan! O necə də nankordur!**

**Qoy baxıb görsün Allah onu nədən yaradıb?**

**Allah onu nütfədən yaratdı və müəyyən şəkildə formalaşdırdı. "(Əbəsə surəsi, 17-19)**

Bu cür insanların meydana gətirdiyi cəmiyyət isə, təbii olaraq, din əxlaqından uzaq yaşayan və Allahı **"saymayıb unutduğu əhəmiyyətsiz bir şey"** (Hud surəsi, 92) olaraq qəbul etmiş cəmiyyətdir. Belə böyük cəhalət içində yaşayan cəmiyyətin bütün üzvlərinin bənzər əxlaqi pozğunluğa, ağıl zəifliyinə sahib olması, bir növ "sürü psixologiyası" yaradır və insanların böyük qisminin onsuz da var olan inkarlarını daha da gücləndirər. Allahdan və axirətdən xəbərsiz olan bu cür cəmiyyətlər, Quranda "cahil cəmiyyət" olaraq adlandırılır. Çünki bu cəmiyyətin üzvlərinin böyük əksəriyyəti, hər nə qədər fizika, tarix, biologiya, ya da bənzər mövzularda bilik sahibi olsalar da, Allahı tanıya biləcək ağıl və vicdana sahib deyildirlər.

Və bu cahil cəmiyyətin üzvləri, mövzuya başlayarkən toxunduğumuz kimi özlərinə səhv "yol göstərici"lər seçmişlər. Allahı gərəyi kimi tanımadıqlarına görə, çox böyük cəhalətlə Allahın əmr etdiyi yoldan fərqli yollara düşərlər. Eynilə özləri kimi aciz qul olan insanlara tabe olar, o insanları nümunə götürər, o insanların düşüncələrini mütləq doğrular olaraq qəbul edərlər.

Və nəticədə cahil cəmiyyət, getdikcə öz-özünü korlaşdıran, öz-özünü ağıl və vicdandan qoparan sistem yaradır. Bu səbəbdən bu batil sistemin öz-özünə həll edilməsi və bəhs etdiyimiz cəmiyyətin üzvlərinin Allahın varlığını və axirətdə Ona hesab verəcəklərini anlamaları mümkün olmaz.

Bu bağlı sistem, Allahın göndərdiyi "yol göstərici"nin cahil cəmiyyəti gerçəyə dəvət etməsinə qədər davam edər. Quranda bu vəziyyət belə xəbər verilir:

**Kitab əhlindən və müşriklərdən inkar edənlər onlara açıq-aydın dəlil gəlməyincə küfrlərindən əl çəkmədilər. Bu dəlil pak səhifələri oxuyan Allahın göndərdiyi Elçidir. (Beyyinə surəsi, 1-2)**

## Rəsulun seçilişi

Az əvvəl vurğuladığımız kimi, cahil cəmiyyətin batil dəyərləri ilə anlayışı bağlanmış insan öz başına Allahı fərq edə biləcək və doğrunu görə biləcək qabiliyyətə sahib deyil. Ancaq sonsuz mərhəmət və şəfqət sahibi olan Rəbbimiz bu kəslərə, özlərini xəbərdar edəcək, Allahın və axirətin varlığını, həyatın həqiqi mənasını bildirəcək elçilər göndərir. Onsuz da Quranda bu elçilərə "**Rəsul**" adı verilir ki, rəsulun hərfi mənası "**göndərilən**"dir.

Quranda hər cəmiyyətin mütləq bir rəsul vasitəsi ilə xəbərdar edildiyi belə bildirilir:

**Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun" – deyə, elçi göndərdik. Onlardan kimisini Allah doğru yola yönəltmiş, kimisinə də azmaq nəsib etmişdir. Yer üzündə gəzib dolaşın və görün haqqı yalan sayanların aqibəti necə oldu! (Nəhl surəsi, 36)**

Rəsullar da ümumiyyətlə cahil cəmiyyətin içində yaşayan insanlar olmalarına baxmayaraq, Allahın onlara bu mübarək məsuliyyətlərini bildirməsindən əvvəl də gözəl əxlaqları, vicdanlı davranışları, dürüstlükləri və nəcibllikləri ilə tanınan insanlardır. Məsələn, Peyğəmbərimiz (s.ə.v), özünə peyğəmbərlik vəzifəsi təbliğ edilmədən əvvəl də yaşadığı cəmiyyət içində "əl-əmin" yəni etibarlı sifətiylə tanınan və bilinən, çox üstün əxlaqlı insandır.

Rəsulların elçiliyi həyatlarının müəyyən bir dövründə başlayar. Bəzən Allahın Rəsulun qəlbinə verdiyi anlayışla Allahın varlığının və içində olduğu cəmiyyətin nə cür yanlış olduğunun fərqinə varır, bəzən də bu həqiqət özünə vəhy yolu ilə bildirilir. Məsələn, hz. İbrahim (ə.s), Allahın varlığını və bu həqiqətən xəbərdar olmayan cəmiyyətinin azğınlığını Allahın ilham etdiyi anlayışla tapmışdır. Quranda, hz. İbrahim (ə.s)-ın vəziyyəti belə izah edilir:

**Bir zaman İbrahim atası Azərə demişdi: "Sən bütləri məbudlarmı qəbul edirsən? Mən səni və sənin qövmünü açıq-aydın azğınlıq içində görürəm".**

**Beləcə, Biz, İbrahimə göylərin və yerin səltənətini göstərdik ki, yəqinliklə inananlardan olsun.**

**Gecənin qaranlığı onu bürüdükdə o, ulduz görüb: "Bu mənim Rəbbimdir!" – dedi. O batdıqda isə: "Mən batanları sevmirəm!" – dedi.**

**Doğan ayı gördükdə: "Bu mənim Rəbbimdir!" – dedi. O batdıqda isə: "Əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən azmış adamlardan olardım" – dedi.**

**Doğan günəşi gördükdə: "Bu mənim Rəbbimdir, bu daha böyükdür!" – dedi. O batdıqda isə dedi: "Ey qövmüm! Həqiqətən, mən sizin Allaha şərik qoşduqlarınızdan uzağam!**

**Doğrudan da mən, hənif olaraq üzümü göyləri və yeri yaradana çevirdim. Mən müşriklərdən deyiləm”.**

**Qövmü onunla höcətləşdi. O dedi: “Allah məni doğru yola yönəltdiyi halda, siz Onun barəsində mənimlə höcətləşirsiniz? Rəbbimin istədiyi şeylərdən başqa mən, sizin Ona şərik qoşduqlarınızdan qorxmuram. Rəbbim elmi ilə hər şeyi əhatə etmişdir. Məgər düşünüb ibrət almayacaqsınız? (Ənam surəsi, 74-80)**

**Bunlar, öz qövmünə qarşı İbrahimə verdiyimiz dəlillərimizdir. Biz istədiyimiz kəsi dərəcə-dərəcə ucaldarıq. Şübhəsiz ki, Rəbbin Müdrikdir, Biləndir. (Ənam surəsi, 83)**

Ayələrdə bildirildiyi kimi, Allah hz. İbrahim (ə.s)-a "göylərin və yerin melekutunu" göstərmişdir. "Melekut", Allahın ayələri, varlığının dəlilləri mənasındadır. Bu bizə göstərir ki, hz. İbrahim (ə.s), Allahın ona ilham etdiyi anlayış sayəsində, ətrafındakı müşrik (Allahdan başqa ilahlar etmə azğınlığına düşmüş (Allahı tənzih edirik) insanlar) cahil cəmiyyətin azğınlığını fərq edə və Allahın açıq-aşkar varlığını qavraya bilmişdir. Bu, Allahın hz. İbrahim (ə.s)-ı seçmiş olması deməkdir.

Necə ki, Allahın seçməsi və onlara yol göstərməsi bütün rəsulların ortaq xüsusiyyətidir. Quranda bildirilən, Allahın hz. Musa (ə.s)-a olan vəhyində bu mövzu belə xəbər verilir:

**Musanın əhvalatı sənə gəlib çatdımı?**

**O zaman o, bir od görüb ailəsinə demişdi: “Dayanın! Mən bir od gördüm. Bəlkə, ondan sizə bir köz gətirdim, ya da odun yanında bir bələdçi tapdım!”**

**Oda yaxınlaşdıqda bir səda gəldi: “Ey Musa!**

**Həqiqətən, Mən sənin Rəbbinəm. Başmaqlarını çıxart. Çünki sən müqəddəs Tuva vadisindəsən!**

**Mən səni seçmişəm. Sənə vəhy olunanı dinlə!**

**Həqiqətən, Mən Allaham. Məndən başqa heç bir məbud yoxdur. Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl!**

**Həmin Saat hökmən gələcək! Hər kəsə törətdiklərinin əvəzi verilsin deyə, Mən onu az qala Özümdən belə gizlədirəm.**

**Qoy ona inanmayan və nəfsinin istəklərinə uyan bir kəs səni ondan yayındırmasın, yoxsa məhv olarsan! "(Taha surəsi, 9-16)**

Qısacası rəsul, Allahın xüsusi olaraq yaratdığı və seçdiyi çox üstün əxlaqlı, mübarək insandır. İçində olduğu cəmiyyətdəki bütün insanlardan fərqlidir; tək başına və

ilk olaraq Allahın varlığını haqqıyla təqdir edib qavramış, axirətin fərqinə varmışdır. Ancaq bu mərhələdə vəzifəsi hələ yeni başlayır: Rəsul fərqinə vardığı bu böyük həqiqəti içində yaşadığı cahil cəmiyyətin digər üzvlərinə də izah etməklə, onları Allahın yoluna dəvət etməklə məsuldur. Quranda, **"Ey Elçi! Rəbbindən sənə nazil ediləni təbliğ et! Əgər belə etməsən, Onun göstərişini (sənə tapşırdığı elçilik vəzifəsini) yerinə yetirmiş olmazsan...."** (Maidə surəsi, 67) ayəsi ilə, Rəsulun bu böyük təbliğ (dini çatdırma, açıqlama) vəzifəsi bildirilir.

Ancaq Allahın Quranda xəbər verdiyi kimi, bir çox dəfə qövmün ancaq çox az hissəsi Rəsula iman edər, digərləri isə böyük ağılsızlıqla bu mübarək insana düşmən olarlar.

## Rəsula iman edənlər

Quranda izah edilən peyğəmbər hekayələrinə baxdığımızda, rəsulun təbliğə başlamasıyla birlikdə cahil cəmiyyətlərdə çox az sayda insanın onu dinlədiklərini və söylədiklərini qəbul etdiklərini görürük. Çünki rəsul, cahillik əxlaqını yaşayan insanları inandıqları bir çox batil dəyərdən imtina etməyə, bütün saxta tanrılarını tərk etməyə və yalnız Allaha qul olmağa çağırır. Cahil cəmiyyət üzvlərinin böyük hissəsi, bunları qavrayacaq ağıla və şüura sahib deyil. Qavraya biləcək olanların böyük hissəsi də maraqlarına zidd düşən bu gözəl və vicdani sistemi qəbul etməyə çalışmazlar. Bu səbəblə rəsula tabe olanlar, çox kiçik azlıqdır. Bunlar, Allahın izni ilə, cahil cəmiyyətin sıx təlqinini aşa biləcək ağıla və doğru bildiklərini tətbiq edəcək iradəyə sahib olan insanlardır. Rəsulun bildirdiklərinə iman edərlər, bu səbəblə Quranda onlara verilən ad "mömin" (iman edən)dir.

Möminlərin çox əhəmiyyətli xüsusiyyəti vardır. Əvvəlcə dünyaya baxış aspektləri, hadisələr qarşısındakı rəftarları cahil cəmiyyətdən tamamilə fərqlidir. Özlərinə yol göstərici olaraq cahil meyarlarını deyil, Allahın vəhyini və rəsulun davranışlarını hesab etmişlər. Bu səbəblə də, cahil cəmiyyətdəki degenerasiya və çürümüş sistemin əksinə, üstün əxlaqa sahibdirlər. Rəsula qarşı da böyük hörmət, sevgi və sədaqət bəsləyərlər. Quranda möminlərin əxlaqi xüsusiyyətləri, Allaha olan bağlılıqları və rəsula istiqamətli rəftarları ətraflı olaraq izah edilir.

Quranda möminlərlə əlaqədar olaraq xəbər verilən başqa xüsusiyyət də olduqca diqqət çəkicidir. Bu xüsusiyyətə, həm hz. Musa (ə.s)-a iman edən möminlər, həm də "Kəhf əhli"ndə diqqət çəkilir. Quranda, hz. Musa (ə.s)-a iman edənlərlə əlaqədar olaraq belə buyurulur:

**Firon və onun əyanları tərəfindən özlərinə işgəncə veriləcəyindən qorxaraq Musaya öz qövmündən yalnız azsaylı bir nəsil iman gətirdi. Həqiqətən də, Firon yer üzündə qəddar hakim və həddi aşanlardan idi. (Yunis surəsi, 83)**

Göründüyü kimi Quranda Allah, hz. Musa (ə.s)-a tabe olanların "gənc"lər olduqlarını xəbər verir. Peyğəmbərimiz (s.ə.v)-in yanındakı səhabələrin böyük qismi də gənclərdən ibarətdir, bu mübarək gənclər müşriklərdən olan ailələrinin, yaxınlarının və qohumlarının bütün təzyiqlərinə baxmayaraq hz. Məhəmməd (s.ə.v)-ə tabe olmuşlar və onunla birlikdə yaşamışlar.

Kəhf surəsində bəhsi keçən iman edənlərin də gənc olduqları bildirilir. Mövzuyla əlaqədar ayələrdə belə buyurulur:

**Biz onların əhvalatını sənə olmuş bir həqiqət kimi söyləyirik. Onlar Rəbbinə iman gətirmiş gənclər idi. Biz də onların hidayətini artırdıq. Onlar kafir hökmdarın qarşısında durub: “Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz heç vaxt Ondan başqa məbuda ibadət etməyəcəyik. Əks halda olduqca böyük bir küfr danışmış olarıq!” - deyərkən onların qəlbinə qüvvət verdik. Cavanlardan biri o birilərinə dedi: “Bizim bu xalqımız Allahdan başqa məbudlar qəbul etdi. Bəs nə üçün onlar buna aid (bütlərə dair) bir dəlil gətirmədilər? Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər?! (Kəhf surəsi, 13-15)**

Ancaq, daha əvvəl də ifadə etdiyimiz kimi içində olduqları tayfanın azmış olduğunu görə bilən və bu səbəbdən də rəsula tabe olan bu gözəl əxlaqlı insanların, yəni möminlərin sayı azdır.

Daha əvvəlki səhifələrdə Ənam surəsindəki hz. İbrahim (ə.s)-la əlaqədar ayələrdə də gördüyümüz kimi, cahil cəmiyyətlərin çox böyük hissəsi, özlərini imana çağıran rəsula düşmənliklə cavab verərlər. Xüsusilə cahil cəmiyyətin varlı, güc sahibi təbəqə içindəki bəzi kəslər mənafelərinin zərər görməsindən narahat olduqları üçün, rəsula qarşı böyük düşmənlik bəsləyərlər. Allah da elçilərini xüsusilə inkarda dirənən, bu təkəbbürlü təbəqəyə göndərər. Az əvvəl Allahın hz. Musa (ə.s)-a çağırışı ilə əlaqədar ayələri çatdırmışdıq. Allahın hz. Musa (ə.s)-a bunlardan sonra verdiyi əmr budur:

**"Fironun yanına get, çünki o, həddini aşmışdır." (Taha surəsi, 24)**

## Cahil cəmiyyətlərdə öndə gələnlər

Daha əvvəl cahil cəmiyyətlərdən bəhs edərkən, bu cəmiyyətin ən böyük xüsusiyyətinin Allahı və dini tanımayan, ya da göz ardı edən cəmiyyət olduğunu vurğulamışdıq. Cahil cəmiyyətin bu xüsusiyyətinin ən böyük nəticələrindən biri də səhv ictimai nizam qurmalarıdır.

İman etmiş, Allahı tanıyan və Ona itaət edən cəmiyyətlə, cahil cəmiyyətlərin nizamı tamamilə fərqlidir. İman edən cəmiyyətdə, insanlar soylarına, fiziki xüsusiyyətlərinə, maddi vəziyyətlərinə görə dəyərləndirilməzlər. Bu cəmiyyətdə, təqdir görən, sevilən və sayılan insanlar əxlaqi cəhətdən üstün xüsusiyyətləri olan insanlardır. Bu əxlaqi xüsusiyyətlər isə (təvazökarlıq, dürüstlük, etibarlılıq, mərhəmətli olmaq, hörmət və sevgini bilmək və fədakarlıq kimi) ancaq Allaha təslimiyyət ilə qazanılır. Bu səbəblə iman edən cəmiyyətdə özünə güc və iqtidar verilən, özünə tabe olunan kəslər, Allahın Quranda bildirdiyi mömin əxlaqını ən çox daşıyan kəslərdir.

Halbuki cahil cəmiyyətdəki vəziyyət bunun tam tərsidir. Yuxarıda saydığımız əxlaqi dəyərlərin bu cəmiyyətdə çox əhəmiyyəti yoxdur. Bu cəmiyyətin üzvləri, Quran əxlaqından uzaq olmaları səbəbiylə, maddi bəzi xüsusiyyətləri gözlərində çox böyüdərlər. Məsələn, maddi zənginlik, cahil cəmiyyətdəki ən böyük dəyərdir. Cəmiyyətdə bir çox insanın ən əhəmiyyət verdiyi mövzu "pul" dur; yəni bir mənada ən əhəmiyyətli büt olaraq pul seçilmişdir. Bundan ötrü də, cahil cəmiyyətdə sanki dəyişməz qayda meydana gəlmişdir: "Hər kəsin qiyməti vardır".

Madam hər kəsin qiyməti vardır, elə isə çox pulu olan bəziləri, hər kəsə lazımlı ödənişi edərək ən üst addıma çıxa bilər. Çox pulu olanların mütləq insanları "satın alması"na da ehtiyac yoxdur; pul ən əhəmiyyətli dəyər halına gəldiyi üçün, pulu olan adama qəribə hörmət və heyranlıq duyulur. Bu səbəbdən cahil nizamında, ən çox pula sahib olan kəslər ən güclü və ən etibarlı kəslərdir. Bu kəslər cahil cəmiyyətin guya "elit" təbəqəsini meydana gətirər və insanları istiqamətləndirərlər. Onların verdiyi hər qərar cəmiyyətin digər üzvləri tərəfindən qəbul edilir. Həyat tərzləri, rəftarları və əxlaqi quruluşları, səhv də olsa, cəmiyyətin digər üzvləri tərəfindən heyranlıqla izlənir, "dəb" olaraq qəbul edilir.

Quranda, cahil cəmiyyəti istiqamətləndirən bu təbəqədən tez-tez bəhs edilir. Ayələrdə "qövmün öndə gələn inkarçıları", "qövmün rifahdan azğınlaşan öndə gələnləri" kimi ifadələrlə təyin olunan bu təbəqənin böyük qismi, rəsulların təbliğinə şiddətlə qarşı çıxan və insanları rəsulları dinləməməyə, hətta onlara düşmənçilik bəsləməyə çağıran təbəqədir. Quranda, bu dəyişməz qayda belə bildirilir:

**Biz hansı bir məmləkətə xəbərdarlıq edən peyğəmbər göndərdiksə, onun cah-calal içində yaşayan sakinləri ona sadəcə olaraq: “Biz sizinlə göndərilənləri inkar edirik!” –**

**dedilər. Onlar: "Bizim mal-dövlətimiz də, övladlarımız da daha çoxdur və bizə əzab verilməyəcəkdir" – dedilər. (Səba surəsi, 34-35)**

Yaxşı, nədir öndə gələnlərin rəsula qarşı belə reaksiya vermələrinin səbəbi?

# RƏSULLARIN TƏBLİĞİ: ALLAHA İMAN VƏ İTAƏT

Quranda bəhs edilən bütün rəsullar göndərildikləri qövmlərdən təməl olaraq iki şey istəmişlər: Allaha şirk qoşmadan iman etmələri, Ondan qorxub-çəkinmələri və özünə itaət etmələri. Ard-arda bir çox rəsulun xəbərlərinin verildiyi Şuəra surəsində bu dəyişməyən təbliği asanlıqla görə bilərik. Ayələrdə belə buyurulur:

**Nuh tayfası da elçiləri yalançı saydı. O vaxt qardaşları Nuh onlara dedi: "Məgər qorxmursunuz? Həqiqətən, mən sizin üçün etibar edilməli bir elçiyəm. Allahdan qorxun və mənə itaət edin. Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir. (Şuəra surəsi, 105-109)**

**Ad tayfası da elçiləri yalançı saydı. O vaxt qardaşları Hud onlara dedi: "Məgər qorxmursunuz? Həqiqətən, mən sizin üçün etibar etməli olduğunuz bir elçiyəm. Allahdan qorxun və mənə itaət edin! Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir. (Şuəra surəsi, 123-127)**

**Səmud tayfası da elçiləri yalançı saydı. O vaxt qardaşları Saleh onlara dedi: "Məgər qorxmursunuz? Şübhəsiz ki, mən sizin üçün etibar etməli olduğunuz bir elçiyəm. Allahdan qorxun və mənə itaət edin. Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir (Şuəra surəsi, 141-145)**

**Lut tayfası da elçiləri yalançı saydı. O vaxt qardaşları Lut onlara dedi: "Məgər qorxmursunuz? Həqiqətən, mən sizin üçün etibar edilməli bir elçiyəm. Allahdan qorxun və mənə itaət edin! Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir. (Şuəra surəsi, 160-164)**

**Əykə əhli də elçiləri yalançı saydı. O vaxt Şueyb onlara dedi: "Məgər qorxmursunuz? Şübhəsiz ki, mən sizin üçün etibar etməli olduğunuz bir elçiyəm. Allahdan qorxun və mənə itaət edin! Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir. (Şuəra surəsi, 176-180)**

Quranda izah edilən digər bütün rəsulların təbliğləri və üslubları da yenə eynidir. Allah ayələrində hz. İsa (ə.s) və hz. Harun (ə.s)-ın qövmlərinə belə söylədiklərini bildirir:

**İsa aydın dəlillərlə gəldiyi zaman dedi: "Mən sizə hikmət gətirmişəm və barəsində ziddiyyətə düşdüyünüz bəzi şeyləri izah etmək üçün gəlmişəm. Allahdan qorxun və mənə itaət edin! Həqiqətən, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Elə isə Ona ibadət edin! Budur düz yol!"** (Zuxruf surəsi, 63-64)

**Bundan əvvəl Harun onlara demişdi: "Ey qövmüm! Siz bununla ancaq sınağa çəkildiniz. Həqiqətən, sizin Rəbbiniz Mərhəmətli Allahdır. Mənə tabe olun və əmrimə itaət edin!" (Taha surəsi, 90)**

Quranda, hz. Məhəmməd (s.ə.v)-ə itaət edilməsinin əmr edildiyi ayələrdən birində belə buyurulur:

**De: "Allaha və Peyğəmbərə itaət edin". Əgər üz çevirsəniz, bilin ki, o ancaq özünə həvalə edilənə cavabdehdir, siz də ancaq özünüzə həvalə edilənə cavabdehsiniz. Əgər ona itaət etsəniz, doğru yola yönəlmiş olarsınız. Peyğəmbərin öhdəsinə düşən isə ancaq açıq-aşkar təbliğat aparmaqdır. (Nur surəsi, 54)**

Ayələrdə görüldüyü kimi bütün rəsullar göndərildikləri qövmləri Allaha iman etməyə və Ona qul olmağa dəvət edərlər. Onları axirət ilə xəbərdar edər, dünyanın müvəqqəti olduğunu, etdiklərinin qarşılığını axirətdə görəcəklərini bildirərlər. Və bütün bunlarla yanaşı həmçinin göndərilmiş olduqları tayfanın onlara itaət etməsini istəyərlər. Çünki bu Allahın əmridir və Qurandakı; **"... əgər ona itaət etsəniz doğru yola yönəlmiş olarsınız ..."** (Nur surəsi, 54) hökmü gərəyi, qövmü doğru yola yönəldə biləcək olan yalnız, Allahın dinini yaşamağa çağıran rəsuldur.

Məhz qövmün öndə gələn inkarçıları rəsulun bu xüsusiyyətini qəbul etməzlər. Çünki öndə gələnlərin böyük qismi, əllərindəki maddi güc sayəsində bütün qövmü özlərinə bağlı qılmışlar. Halbuki rəsul, qövmünə, Allahdan başqa heç bir tanrı və "Rəbb" (təlimatçı, yol göstərici, hökm qoyucu) olmadığını və Allahın özünə itaət edilməsini əmr etdikləri xaricində, heç kimsənin itaətə layiq olmadığını bildirir. Bu həqiqətin -ki, bu şirk qoşmadan Allaha iman etmək deməkdir- qövm tərəfindən qəbul edilməsi, qövmün öndə gələnlərinin sahib olduqları güc və iqtidarı ortadan qaldıracaq. Məhz bu səbəblə öndə gələnlərin böyük qismi rəsulun təbliğinə ən böyük düşmənçiliyi göstərənlərdir.

Bəhs etdiyimiz insanların rəsula qarşı olmalarının başqa səbəbi isə, öz əksik ağıllarına və etibarsız meyarlarına görə Allah qatında üstün və qiymətli olan bu mübarək insanın liderliyini qısqanmalarıdır.

# RƏSULA QARŞI ÇIXILMASININ ARDINDAKI SƏBƏBLƏR

Öndə gələnlərin rəsula öz ağıllarına görə tələlər qurmalarının təməlində Allahın elçilərinin və onun dəstəkçisi olan möminlərin, inkarçıların qeyri əxlaqi, səhv nizamlarını pozmaları durar. Rəsullar öz yaşadıqları cəmiyyəti Allahdan başqa kimsəyə ibadət etməməyə çağırır. Bunun nəticəsində insanlar Allaha yönələcək və Quranda bildirilən ədalət və gözəl əxlaq quruluşu cəmiyyətə hakim olmağa başlayacaq. Dürüstlük, səmimiyyət, fədakarlıq, çalışqanlıq kimi üstün əxlaq xüsusiyyətləri yaşanacaq. Əlbəttə ki, bu vəziyyət yer üzündə fitnə-fəsad çıxaran, haqsızlıq və zülmlə məqam, mövqe və mənfəət əldə etməyi vərdiş halına gətirmiş, "çirkin utanmazlığı", əxlaqsızlığı və Allahın sərhədlərini çeynəməyi həyat tərzi olaraq mənimsəmiş kəsləri narahat edər.

Bu kəslər məqam, mövqe və mal varlıqları ilə özlərinə asılı etdikləri, istədikləri şəkildə yönləndirdikləri və əmrlərində işlətdikləri insanları artıq istədikləri şəkildə yönəldə bilməyəcəklərindən qorxarlar. Çünki rəsulun təbliğinə təslim olan kəslər həqiqətdə yalnız Allaha təslim olur və yalnız Allahdan qorxub çəkinmələri lazım olduğunu bilərək hərəkət edərlər. Saxtakarlıq etməkdən çəkinər, harama əl uzatmaz, oğurluq, fitnə-fəsad etməz, kasıbın yetimin haqqını qoruyarlar. Məhz buna görə peyğəmbər və möminlərin təbliğləri inkarçıların maraqlarını zədələyir.

İnkarçıların öndə gələnlərini narahat edən başqa vəziyyət isə, sahib olduqları güc, etibar və iqtidara baxmayaraq özlərindən olmayan, üstəlik özlərini və sistemlərinin səhvini ortaya qoyan insanın din əxlaqını yayaraq cəmiyyətdə qəbul görməsidir. Daha əvvəl də ifadə etdiyimiz kimi, bu insanlar ağılsız qiymətləndirmə içində olduqları və səhv anlayışla düşündükləri üçün hadisəni tamamilə fərdi çəkişmə olaraq görər və peyğəmbərin onlara üstün gəlməsini həzm edə bilməzlər.

Allahın elçilərinin, dünyanın ən ağıllı, ən gözəl əxlaqlı insanları olduğu çox açıq həqiqətdir. Buna baxmayaraq elçiləri qısqanan öndə gələn inkarçılar öz aləmlərində bu dəyərli insanları, xüsusilə cəmiyyət qarşısında alçaltmağa çalışmışlar. Halbuki alçalan yalnız özləridir.

Məsələn, dövrün inkarçıları Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-ə də böyük böhtanlar atmışlar. Ağıllarına görə lağ və təhqir xarakterli sözlərlə Allah Qatında çox üstün olan insanı, ona inananların gözündən salmağa çalışmışlar. Ancaq etdikləriylə heç bir nəticəyə gələ bilməmişlər, bu, iman edənlərin daha çox şövqünü artırmış, onların bir-birlərinə daha çox bağlanmalarına səbəb olmuşdur. Allah bu kəslərin itiralarından bəzilərini belə xəbər verir:

**Kafirlər: “Bu, Muhəmmədin uydurduğu yalandan başqa bir şey deyildir. Ona bu işdə başqa adamlar da kömək etmişlər” - dedilər. Beləcə, onlar haqsızlığa və iftiraya yol verdilər. Onlar: “Bu, keçmişdəkilərin nağıllarıdır. O bunları başqasına yazdırmışdır. Bunlar səhər-axşam onun özünə oxunur” - dedilər. De: “Onu göylərdə və yerdə olan sirləri bilən Allah nazil etmişdir. Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir!” (Furqan surəsi, 4-6)**

Öndə gələnlərin böyük qisminin rəsula qarşı olmalarının başqa səbəbi isə, öz yanlış dəyər mühakimələrinə görə öndə gələnlərdən olmayan kəsin liderliyini qısqanmaları və hadisələri öz çirkin məntiqlərinə görə dəyərləndirmələridir.

## Öndə gələnlərin rəsulu  təqdir edə bilməmələri

İnkarçıların ən böyük xüsusiyyəti vicdanlarından istifadə etmədikləri üçün ağıllı mühakimə edə bilməmələridir. Quranda bu mövzu geniş şəkildə xəbər verilir. Və şübhəsiz bu xüsusiyyət, inkarçıların öndə gələnləri üçün də keçərlidir.

Öndə gələnlərin bu vəziyyətlərini ən yaxşı ortaya çıxaran göstəricilərdən biri də rəsula olan yanlış baxış aspektləridir. Rəsul Allahın elçisidir və cəmiyyəti Onun yoluna yönəltmək üçün göndərilmişdir. Bu, əlbəttə son dərəcə böyük və əhəmiyyətli məsuliyyətdir. Ancaq öndə gələnlər bu incəliyi qavraya bilməz və rəsulu da özləri kimi adi insan zənn edərək onun təbliğ etdiklərini öz səhv məntiqləri, axmaq qayda və ənənələri içində qiymətləndirərlər.

Öndə gələnlərin ən qatı olduqları qayda və ənənələrdən biri, liderlik xüsusiyyəti ilə əlaqədardır. Cahil cəmiyyətlərdəki ümumi qaydaya görə, birinin lider olaraq qəbul edilməsi üçün mütləq maddi bəzi xüsusiyyətlər lazımdır: Lider, ya soylu və məşhur bir ailənin üzvü olmalı, ya da çox zəngin biri olmalı, yəni bir başqa sözlə öz ağıllarına görə "elit" olaraq adlandırdıqları sinifin üzvü olmalıdır.

İnkarçılar rəsulun təbliğini də bu səhv məntiq içində qiymətləndirərlər. Onların axmaq ağıllarına görə, "əgər Allahın elçisi olacaqsa", bu öz əhatələrindən, yəni zəngin, ya da məşhur birisi olmalıdır. Öz ictimai siniflərinə daxil olmayan kəslərin Allahın elçisi və bu səbəbdən cəmiyyətin lideri ola biləcəyini qəbul edə bilməzlər. Bu ağılsızlıqları da özlərinin həm dünyada, həm də axirətdə böyük itki və əzab içində olmalarına səbəb olar.

Quranda bildirilən Talut hekayəsində inkarçıların bu baxış aspekti belə xəbər verilir:

**Peyğəmbərləri onlara dedi: "Allah Talutu sizə hökmdar təyin etdi!" Onlar dedilər: "O necə bizə hökmdar ola bilər ki, biz hökmdarlığa ondan daha çox layiqik və ona heç böyük var-dövlət də verilməmişdir". O dedi: "Allah sizin üzərinizə onu hökmdar seçdi, elm və bədəncə onun gücünü artırdı. Allah Öz mülkünü istədiyi kəsə verir. Allah hər şeyi Əhatəedəndir, Biləndir". (Bəqərə surəsi, 247)**

İnkarçıların öndə gələnlərinin bu səthi və səhv baxış aspekti olduqca məşhurdur. Hz. Məhəmməd (s.ə.v)-in risaləti də qövmünün əyanları tərəfindən tanınmamış və Quranda xəbər verildiyi kimi, **"Zikr (Quran), aramızdan onamı nazil oldu? ..."** (Sad surəsi, 8) şəklindəki ifadələrlə üz çevirmişlər. İnkarçıların necə ağılsızlıq içində olduqlarının açıq bir nümunəsi olan bu vəziyyət başqa ayələrdə belə izah edilir:

**Onlara haqq gəldikdə isə: "Bu, sehrdir, biz ona inanmırıq!" – dedilər. Onlar dedilər: "Nə üçün bu Quran iki şəhərdən (Məkkədən və ya Taifdən) olan böyük bir adama nazil edilmədi?" (Zuxruf surəsi, 30-31 )**

Allah, öndə gələnlərin bu ifadəsinə qarşılıq bir sonrakı ayədə belə buyurur:

**«Sənin Rəbbinin mərhəmətini onlarmı bölüşdürürlər? ...» (Zuxruf surəsi, 32)**

İnkarçıların bu azğın baxış aspektinə görə, rəsulu Allahın seçmiş olması yetərli deyil. Onların səhv məntiqlərinin tək meyarı maddi zənginlikdir və bu səbəbdən də rəsulu da bu səhv meyara görə qiymətləndirirlər. Onların azğın məntiqinə görə, rəsul böyük maddi gücə sahib olmalıdır ki, ona itaət edilsin. Quranda, inkar edənlərin bu ağılsız ümidləri belə xəbər verilir:

**Biz bu Quranda insanlar üçün hər cür məsəli müfəssəl izah etdik. Lakin insanların çoxu yalnız küfrü seçdi. Onlar dedilər: "Bizə yerdən bir bulaq çıxarmayınca sənə iman gətirməyəcəyik; və ya ortasından şırıl-şırıl çaylar axıdacağın xurma və üzüm bağın olmayınca; yaxud, iddia etdiyin kimi, göyü parça-parça üstümüzə yağdırmayınca; və ya Allahı və mələkləri qarşımıza gətirməyincə; yaxud qızıldan bir evin olmayınca; və ya göyə qalxmayınca biz sənə inanmayacağıq. Əgər bizə oxuyacağımız bir kitab endirməsən, göyə qalxmağına da inanmayacağıq". De: "Rəbbim pak və müqəddəsdir! Mən isə yalnız elçi göndərilmiş bir insanam". (İsra surəsi, 89-93)**

Halbuki möminlər rəsula hər hansı bir maddi xüsusiyyəti səbəbiylə deyil, Allah onu seçmiş olduğu üçün bağlanmışlar, imanı və Allaha olan yaxınlığı səbəbiylə ona beyət etmişlər. İnkar edənlər isə, bu incəliyi qavrayacaq vəziyyətdə deyildirlər. Onların yanlış məntiqinə görə, ən çox mülkə özləri sahibdir və bu səbəbdən sözü eşidilməli olan kəslər də onlardır.

Məhz inkarçıların rəsula və möminlərə etdikləri hücumlar və bunun nəticəsində ortaya çıxan iki tərəf arasındakı böyük mübarizənin ən əhəmiyyətli səbəblərindən biri budur.

Öndə gələnlərin rəsula qarşı göstərdikləri əxlaqsız rəftarın, bu əxlaqsızlıqlarının və ağılsızlıqlarının qarşılığında içinə düşdükləri vəziyyətin əhəmiyyətli nümunəsi isə, Allahın Quranda bildirdiyi hz. Musa (ə.s) və Firon arasında keçən mübarizədir.

## Hz. Musa (ə.s) və Firon

Firon, Quranda bildirildiyi üzrə, Misir xalqını sahib olduğu maddi və hərbi güc ilə idarə edən və təzyiq altında tutan zalım idi. Xüsusilə Misirdə kölə olaraq işlədilən İsrail oğullarını təzyiq altında saxlayır və işgəncəyə məruz qoyurdu. Quranda, Fironun iqtidarı belə təsvir edilir:

**Həqiqətən, Firon yer üzündə təkəbbürlük göstərib onun əhalisini zümrələrə bölmüşdü. Firon onlardan bir zümrəni zəiflədir, onların oğlan uşaqlarını öldürür, qadınlarını isə sağ buraxırdı. Həqiqətən, o, fitnə-fəsad törədənlərdən idi. (Qəsas surəsi, 4)**

Allah İsrail oğullarını Fironun əzabından qurtarmaq və onları Öz yoluna yönəltmək üçün hz. Musa (ə.s)-ı rəsul və nəbi olaraq göndərdi. Hz. Musa (ə.s), Firondan İsrailoğullarının öz öndərliyində Misirdən ayrılmasına icazə verilməsini istədi. Halbuki Firon, öz ağlına görə iqtidarına kölgə salacaq belə bir şeyə əsla icazə verməyi düşünmürdü. O, özünün **"bütün Misirin Rəbbi"** (Allahı tənzih edirik) olduğu azğınlığını irəli sürəcək qədər ağılsız idi. Qövmünü mərhəmətsizcə əzir və onlara öz səhv düşüncələrini tək doğru olaraq qəbul etdirməyə çalışırdı. Elə ki, Quranda xəbər verildiyi kimi qövmünə belə demişdi:

**"... Mən sizə ancaq öz düşündüyümü bildirirəm, mən sizə ancaq doğru yolu göstərirəm" (Mümin surəsi, 29)**

Bu səbəblə Firon, hz. Musa (ə.s)-ın ona gəlib İsrailoğullarının öz liderliyinə buraxılmasını istəməsini qəbul etməmişdi. Onun ağlına görə, bütün Misirin mülkü ona aid idi və özünün əksinə heç bir malı-mülkü olmayan hz. Musa (ə.s)-ın, israiloğullarına öndərlik etməsi düşünülə bilməzdi.

Firon hz. Musa (ə.s)-a qarşı dərin qısqanclıq və nifrət hiss etmiş, dünyada sahib olduğu mövqe, mal, mülk, iqtidar kimi üstünlükləri ön plana çıxararaq, göz boyayıcı sözlərlə Allahın elçisini öz ağılsızlığı ilə alçaltmağa çalışmışdır. Nəticədə alçalan isə yalnız özü olmuş, həm dünyada, həm də axirətdə bütün gözəllikləri itirmişdir. Quranda Fironun sözləri belə xəbər verilir:

**"Firon qövmünü çağırıb dedi: "Ey xalqım! Məgər Misir səltənəti və altımdan axan bu çaylar mənim deyilmi? Məgər görmürsünüzmü? Ya da mən bu aciz və az qala sözünü belə aydın başa sala bilməyən adamdan daha üstün deyiləmmi? Nə üçün ona qızıl bilərziklər taxılmayıb və onunla birlikdə bir-birinin ardınca mələklər gəlməyib?" Firon öz xalqını aldatdı, onlar da ona itaət etdilər. Həqiqətən, onlar fasiq adamlar idilər. " (Zuxruf surəsi, 51-54)**

Görüldüyü kimi Firon o qədər ağılsız və yanlış məntiqə malikdir ki, böyük azğınlıqla "Misirin Rəbbinin" (Allahı tənzih edirik), özü olduğunu iddia edir. Halbuki hz. Musa (ə.s), Allahın **"göylərin, yerin və bu ikisi arasında olan hər şeyin Rəbbi"** olduğunu söyləyir. Yəni Misir də buna daxildir. Bu vəziyyət Fironun narahat olmasına səbəb olmuşdur. Ayələrdə Musa peyğəmbər (ə.s) və Firon arasında bəhs edilən söhbətlər belə xəbər verilir:

**"Firon dedi: "Aləmlərin Rəbbi nədir?" Musa dedi: "Əgər yəqinliklə inanırsınızsa, bilin ki, O, göylərin, yerin və onların arasında olanların Rəbbidir!" Firon ətrafındakılara dedi: "Onun nə danışdığını eşitmirsinizmi?" Musa dedi: "O sizin də, ulu babalarınızın da Rəbbidir!" Firon dedi: "Sizə göndərilmiş bu elçi, sözsüz ki, dəlidir!" Musa dedi: "Əgər anlayırsınızsa, bilin ki, O, şərqin, qərbin və bunların arasında olanların Rəbbidir!" Firon dedi: "Əgər məndən başqasına sitayiş etsən, səni məhbusların yanına ataram!" (Şuəra surəsi, 23-29)**

Fironun hz. Musa (ə.s)-a düşmənçilik bəsləməsinin səbəbi, onun izah etdiyi gerçəklərin öz qurmuş olduğu yanlış nizamı dağıdacağı qorxusudur. Firon Allahın varlığını bilir və bunu ifadə də edir. Ayədə belə buyurulur:

**Firon dedi: “Ey əyanlar! Mən sizin üçün özümdən başqa bir məbud tanımıram. Ey Haman! Mənim üçün palçığın üzərində od qala və bir qüllə düzəlt ki, Musanın məbudunun yanına qalxım. Mən, həqiqətən də, onu yalançılardan hesab edirəm. (Qəsas surəsi, 38)**

Fironun bu yanlış məntiqi Quranda "qövmün öndə gələn inkarçıları" olaraq nümunə verilən şəxslərin də ümumi xüsusiyyətini yaradır. İnkarçıların ən əhəmiyyətli xüsusiyyətlərindən biri yanlış Allah inancına sahib olmalarıdır. Bu səbəbdən Allahın onlara itaət edilməsi üçün göndərdiyi elçiləri də tanımazlar. Həmçinin Rəsul onlara qurduqları sistemin azğın olduğunu bildirir, onları haqsız yerə əldə etdikləri bütün mənfəətlərindən imtina etməyə dəvət edir. Və ən əhəmiyyətlisi, rəsul onlardan özünə tabe olmalarını istəyir. Özlərini bəyənmiş, sahib olduqları nemətlərdən ötrü qürrələnən inkarçı əyanlar, özlərinə gələn bu təklifə də qəzəb və düşmənçiliklə cavab verirlər. Allah bu kəslərin içinə düşdükləri vəziyyəti və elçiliyi dilədiyi kəsə verəcəyini ayələrində belə bildirir:

**Beləliklə hər bir ölkədə oranın günahkarlarını başçılar təyin etdik ki, onlar orada mümkün qədər yaramaz işlər görsünlər. Halbuki onlar o yaramaz işləri yalnız özlərinə qarşı edirlər və bunu da hiss etmirlər. Onlara bir ayə gəldikdə: “Allahın elçilərinə verilənin bənzəri bizə də verilməyincə iman gətirməyəcəyik” - dedilər. Allah peyğəmbərliyini kimə verəcəyini daha yaxşı bilir. Günahkarlar, qurduqları hiylələrə görə Allahın hüzurunda rəzil olacaq və şiddətli əzab çəkəcəklər. (Ənam surəsi, 123-124)**

## Rəsullara qurulan tələlər

Qurandakı peyğəmbər hekayələrinin böyük bir hissəsində, inkarçı qövmün öndə gələnlərinin rəsullara qarşı etdikləri hücumlar, təşkil etdikləri sui-qəsd və böhtanlardan bəhs edilir. Belə ki, qövmün inkarçılarından bu cür reaksiyalar görməyən rəsul yoxdur. Allahın elçiləri ilə inkarçıların öndə gələnləri arasındakı mübarizə Allahın hz. Adəm (ə.s)-ı dünyaya göndərdiyi dövrdən bəri davam edir.

Ancaq öndə gələnlərin rəsula qarşı başlatdıqları və əslində ən başdan məğlubiyyətə uğramış olaraq icra etdikləri bu cür hərəkətlərin maraqlı cəhəti vardır: Öndə gələnlər, əsasən "biz Allahı tanımırıq və bu səbəblə də bizi Onun hökmlərinə dəvət edən rəsuluna qarşıyıq" deməzlər. Tam tərsinə, bu kəslər özlərinin Allahı inandıqlarını iddia edərlər və rəsulun Allahın elçisi olmadığı yalanını ortaya atarlar. Hətta  böyük ağılsızlıqla Allahın mübarək elçilərinin dünyəvi mənfəətlər arxasınca qaçdıqları şəklində əxlaqsız böhtanlar

atarlar. Rəsula inananların "aldadılmış", "ovsunlanmış" insanlar olduqları böhtanını qarşıya qoyarlar və öz zəif ağıllarına görə cəmiyyəti "rəsuldan qurtarmaq" üçün hərəkətə keçərlər. Onların yanlış məntiqlərinə görə sahib olduqları cahillik nizamı doğru nizamdır və "məqamı və zənginliyi olmayan insan" bu nizamı pozub öz mənfəətləri üçün qarışıqlıq çıxarmağa çalışır. Halbuki özləri böyük azğınlıq içindədirlər. Tək doğru yol Allahın və elçisinin göstərdiyi yoldur. Onlar isə Allahın bildirdiyi əxlaqdan uzaq olmanın əzabı və çətinliyi içində qovrulurlar. Rəsul da onları gerçək qurtuluşa çağırır, içində boğuldukları fəlakətlərdən xilas olmağa dəvət edir. Bu dəvətə əməl edən öz lehinə əməl edir, bu dəvətdən qaçan da öz əleyhinə qaçır.

Peyğəmbərlər kimi son dərəcə gözəl əxlaqlı, ağıllı, hər cəhətdən çox üstün və qiymətli insanların əleyhinə tələlər quran bu şəxslərin ümumi ruh halı da əlbəttə olduqca pozğundur. Belə ki, rəsullara tələ quranların rahat şəkildə cinayət işləyə biləcək xarakterdə olduqlarını Quranda verilən nümunələrdən başa düşməyimiz mümkündür. Məsələn, hz. Yusif (ə.s)-ı qısqanadıqlarına görə kiçik yaşda onu şəhid etmə planları quraraq tələ hazırlayan qardaşları Quranda belə xəbər verilmişdir:

**"Yusifi ya öldürün, ya da onu uzaq bir yerə aparıb atın ki, atanız ancaq sizə məhəbbət bəsləsin və bundan sonra siz əməlisalehlərdən olarsınız”. (Yusif surəsi, 9)**

Ayədən aydın olduğu kimi bu tələləri hazırlayanlar yaxşı insan olma iddiasıyla ortaya çıxırlar. Cəmiyyətin yaxşılığını istəyən insanlar olduqlarını iddia edərək ictimaiyyətə dürüst və etibarlı görünməyə çalışmaları inkarçıların çox əhəmiyyətli xüsusiyyətləridir. Pisi yaxşı, yaxşını pis göstərmək mövzusunda sanki ixtisaslaşmış olan inkarçıların öndə gələnləri, müxtəlif yalanlar, böhtanlar və ittihamlarla saleh möminlər əleyhinə təbliğat aparar, təfərrüatlı psixoloji savaş icra edərlər. Firon da, qövmünün qarşısında hz. Musa (ə.s)-ı şəhid etməklə təhdid etmə səbəbi olaraq "dinə zərər verməsindən və fitnə-fəsad törədəcəyindən çəkindiyi" yalanını irəli sürmüş, o qədər zalımlığına baxmayaraq özünü bu dəyərlərin qoruyucusu elan etmişdir. Əlbəttə buradakı əsl məqsədi insanların həssaslıq göstərdikləri mövzulardan istifadə edərək, cəmiyyəti öz ağlına görə hz. Musa (ə.s) əleyhinə istiqamətləndirməkdir. Fironun Quranda xəbər verilən sözləri belədir:

**Firon dedi: “Buraxın məni Musanı öldürüm! Qoy o da Rəbbinə yalvarsın. Çünki mən onun sizin dininizi dəyişdirəcəyindən, yaxud yer üzündə fəsad törədəcəyindən qorxuram”. (Mümin surəsi, 26)**

Buna görə Firon qövmünü guya hz. Musa (ə.s)-dan "qurtarma"ğa çalışır. Halbuki yer üzündə əsl fəsad çıxaran Fironun özü, cəmiyyətin həqiqi xilaskarı da hz. Musa (ə.s) və onun dəvət etdiyi haqq yoldur. Bu ikiüzlü davranış, bütün öndə gələn inkarçıların ortaq xüsusiyyətidir. Məsələn, Quranda, hz. Nuh (ə.s) ilə qövmünün əyanları arasındakı dialoq belə izah edilir:

**Qövmünün kafir olan, Axirətə qovuşacaqlarını yalan hesab edən və dünya həyatında firavanlıq nəsib etdiyimiz zadəganları dedilər: "O sizin kimi sadəcə bir insandır. Yediyinizdən o da yeyir, içdiyinizdən o da içir. Əgər siz özünüz kimi adi bir insana itaət etsəniz, mütləq ziyana uğrayarsınız. O sizə ölüb torpağa və sür-sümüyə çevrildikdən sonra dirildilib yenidən çıxarılacağınızımı vəd edir? Sizə vəd olunan şey həqiqətdən çox uzaqdır, çox uzaq! Dünya həyatımızdan başqa heç bir həyat yoxdur; ölüb dirilirik (birimiz ölür, digərimiz anadan olur) və biz dirilməyəcəyik. Bu, ancaq Allaha iftira yaxan bir adamdır. Biz ona inanan deyilik". (Muminun surəsi, 33-38)**

Görüldüyü kimi, öndə gələnlər rəsul haqqında olduqca heyrətverici əleyhində təbliğat edirlər. Rəsulun insanlara bildirdiyi və dinin ən böyük təməllərindən biri olan axirət inancını rədd edir, ancaq yenə də Allahı inkar etdiklərini qəbul etməyib, öz zəif ağıllarına görə rəsulu "Allah adına yalan uyduran" biri, yəni "din istismarçısı" olaraq tanıtmağa çalışırlar. Şübhəsiz bu çox böyük əxlaqsızlıq və hər istiqamətdən yalan olan böhtandır. Ancaq din əxlaqından uzaq olduqları üçün doğrunu səhvdən ayırma xüsusiyyətlərini itirmiş olan bir qisim insanlar yalan üzərinə qurulan bu təbliğatın təsiri altında qala bilirlər. Allahın iman nəsib etdiyi az saydakı mömin üçün isə bu böhtanlar, hücumlar və təbliğatlar rəsulu daha çox sevmələri, daha könüldən bağlanmaları, imani şövq və həyəcanlarının artması üçün gözəl fürsətdir. Çünki bu hadisələrin hər biri Allahın vədinin gərəyi olaraq reallaşır və Rəbbimizin hikmətli imtihanlarından biri olaraq yaradılır. İnkarçıların digər ağılsız iddiaları da rəsulun da "yemək yeyən, su içən" normal insan olduğu, bu səbəbdən ona tabe olmanın heç kimsəyə faydası olmadığı şəklindədir. Halbuki bu da son dərəcə axmaq iddiadır: Rəsul da şübhəsiz bir insandır və digər insanlar kimi yaşayır, ancaq Allah onu elçisi olaraq seçmiş, onu Öz tərəfindən nemətlərlə üstün etmiş və doğruya yönəltmişdir. Bu səbəblə də rəsula qeyd-şərtsiz itaət edənlər, yer üzündəki tək həqiqi yol göstəriciyə uymuş olurlar.

Quranda, iman etməyən insanların rəsulların fövqəladə varlıq olması ümidi içində olduqları, ancaq bunun səhv olduğu xəbər verilmişdir. Allah bu kəslər üçün belə buyurur:

**İnsanlara doğru yol göstəricisi gəldiyi zaman onların iman gətirməsinə ancaq: "Allah bir insanımı elçi göndərdi?" - demələri mane oldu. De: "Əgər yer üzündə arxayın**

**gəzib dolaşanlar mələklər olsaydı, əlbəttə, onlara göydən bir mələk elçi göndərərdik". (İsra surəsi, 94-95)**

İnkarçıların rəsula qarşı çıxmalarının əsl səbəbi, qarşıya qoyduqları yalanlardan olduğu kimi qövmlərini rəsulun düşüncələrindən qorumaq deyil. Bu kəslər daha əvvəl də ifadə etdiyimiz kimi yalnız öz maraqlarını düşünür və mənfəətləri üçün böyük təhdid olaraq gördükləri rəsula düşmənçilik bəsləyirlər.

Bu səbəblə öndə gələn inkarçılar, necə olursa olsun Rəsulun təbliğini durdurmalı olduqlarını düşünürlər.

Bu hədəf istiqamətində ilk etdikləri şey, rəsul və təbliği haqqında bütün cəmiyyətə istiqamətli mənfi təbliğat aparmaqdır. Bu istiqamətdə istifadə etdikləri bəzi klassik böhtan üsulları vardır. Quranda bu üsullar ətraflı olaraq izah edilir. Ancaq burada çox əhəmiyyətli bir xüsusun xatırladılmasında fayda vardır. İnkarçılar rəsulları və iman edənləri öz ağıllarına görə alçaltmaq məqsədiylə nə kimi üsullardan istifadə edərlərsə etsinlər, nə kimi böhtanlar atarlarsa atsınlar bir nəticəyə gələ bilməmişlər. Çünki inkarçıların gözlədiklərinin əksinə iman gətirənlər üzərində təhqir və böhtanların da, qaralama kampaniyalarının da mənfi təsiri olmaz.

İman edənlər bütün bunların özləri üçün əhəmiyyətli əcr vəsiləsi olduğunun şüurundadırlar. Bu böhtanlara səbir edib, ən gözəl şəkildə qarşılıq verəndə və nə olursa olsun Allah yolundan və din əxlaqından güzəştə getmədiklərini bütün bunların qarşılığını həm bu dünyada, həm də axirətdə ən gözəl şəkildə alacaqlarını ümid etmənin sevincini yaşayarlar.

## Rəsullara atılan iftiralar

Möminlər özlərinə yönəldilən iftiraların, əziyyət məqsədli söz və xəbərlərin xüsusi olaraq Allahın özləri üçün yaratdığı sınaq vəsiləsi olduğunu bilirlər. Çünki bütün bunların möminlərin başına mütləq gələcəyi Quranda xəbər verilmişdir. Ayədə belə buyurulur:

**Siz hökmən malınız və canınızla sınaqdan keçiriləcəksiniz. Sizdən əvvəl Kitab verilənlərdən və müşriklərdən bir çox əziyyətverici sözlər eşidəcəksiniz. Əgər səbir edib Allahdan qorxsanız, bilin ki, bu, əzmkarlıq tələb edən əməllərdəndir. (Ali İmran surəsi, 186)**

Allah dünyada iman edənlərə yaşatdığı bu kimi imtahanların sonunda özlərini təmizə çıxaracağını da ayələrində vəd etmişdir. Məsələn, hz. Musa (ə.s)-a da qövmü özlərinə görə iftira və pis sözlərlə əziyyət verməyə çalışmış, ancaq Allah onu inkarçıların dediyi sözlərdən təmizə çıxarmışdır.

Ayədə bu vəziyyət belə bildirilir:

**Ey iman gətirənlər! Musanı incidən şəxslərə oxşamayın. Allah onu onların dediklərindən təmizə çıxartdı. O, Allahın yanında çox ehtiram edilən şəxsdir. (Əhzab surəsi, 69)**

Eyni şəkildə hz. Yusif (ə.s)-a da iffəti haqqında böyük iftira atılmış, heç bir günahı olmadığı, tərtəmiz, günahsız insan olduğu, iffətini qoruduğu ortaya çıxmasına və bu həqiqət hər kəs tərəfindən başa düşülməsinə, bütün dəlillər hz. Yusif (ə.s)-ın günahsız olduğunu isbatlamasına baxmayaraq həbsə atılmışdır. Mövzuyla əlaqədar ayə belədir:

**Bu qədər dəlilləri gördükdən sonra, yenə də onu bir müddət zindana salmaq qərarına gəldilər. (Yusif surəsi, 35)**

Hz. Yusif (ə.s) heç bir günahı olmadığı halda ona atılan böhtandan, haqqında çıxarılan şayiələrdən ötrü illərlə zindanda saxlanılmışdır. Ancaq nəticədə həqiqət aydın olmuş, haqqındakı ittihamlardan təmizə çıxmışdır. Və Allah bu mübarək qulunu Misir xəzinələrindən məsul mövqeyə gətirmişdir. Bu hadisə ayələrdə belə xəbər verilir:

**Padşah qadınlara dedi: "Yusifi yoldan çıxartmaqla nə məqsəd güdürdünüz?" Onlar dedilər: "Allah uzaq eləsin! Biz onun haqqında pis bir şey bilmirik". Zadəgan kişinin isə arvadı dedi: "İndi haqq bəlli oldu. Onu mən yoldan çıxartmaq istəyirdim. Həqiqətən də, o, doğru danışanlardandır. Bu etiraf ona görədir ki, ərim yanımda olmadıqda ona xəyanət etmədiyimi və Allahın xainlərin hiylələrinə yol vermədiyini bilsin (Yusif surəsi, 51-52)**

Günahsız olduğunun başa düşülməsinin ardından hz. Yusif (ə.s) qövmünün başına keçmiş və iqtidar sahibi olmuşdur. Mövzuyla əlaqədar ayələrdə belə buyurulur:

**Yusif dedi: "Bu yerin xəzinələrini qorumağı mənə tapşır. Çünki mən qoruyanam, bu işi bilənəm". Beləliklə, Yusifə yer üzündə hökmranlıq verdik. O, istədiyi yerdə qala bilərdi.**

**Biz istədiyimizə mərhəmətimizi nəsib edirik və yaxşı iş görənlərin mükafatını əsirgəmirik. (Yusif surəsi, 55-56)**

Bundan əlavə, rəsulların insanların qarşısında təmizə çıxma kimi narahatlıqları da yoxdur. Hər şeydən xəbərdar olan Allahın, nə etdiklərini və qəlblərində olanı bilməsi kifayətdir.

Ancaq rəsullara və möminlərə böhtan atanlar üçün axirətdə çox böyük əzab olduğu ayələrdə belə xəbər verilir:

**Murdar əməldən xəbəri olmayan ismətli mömin qadınları zinada günahlandıranlar dünyada və axirətdə lənətə düçar olarlar. Onları böyük bir əzab gözləyir – o gün ki, dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir. O gün Allah onlara özlərinə layiq cəzanı tam verəcək və onlar Allahın Aydın Haqq olduğunu biləcəklər (Nur surəsi, 23-25)**

Mömin kişi və mömin qadınları işləmədikləri cinayətlər səbəbiylə ittiham edənlərin vəziyyəti isə başqa ayədə belə bildirilir:

**Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üzərilərinə böhtanla bərabər açıq-aydın ağır bir yük götürmüşlər. (Əhzab surəsi, 58)**

İndi qövmləri ilə olan mübarizələri əsnasında rəsullara atılan iftiraları və inkar edənlərin bu məqsədlə istifadə etdikləri qaralama üsullarını sıra ilə araşdıraq:

## Rəsulun mənfəət arxasınca qaçdığı iftirası

Öndə gələnlərin ən çox üz tutduğu üsul, öz zəif ağıllarına görə rəsulu cəmiyyətin gözündə alçaltmağa çalışmaqdır. Rəsulun müdafiə etdiklərində səmimi olmadığı, əslində öz mənfəətləri üçün belə təbliğ işinə girişdiyi kimi əxlaqsız yalanlar qarşıya qoyarlar. Bu səhv məntiqə görə, rəsul, dini öz maraqları üçün istifadə edir. Bu çirkin böhtana görə, rəsulun insanlardan itaət istəməsinin ardında da "iqtidar ehtirası" yatar. Halbuki rəsullar, insanlardan heç bir ödəniş tələb etməyən, dünyadan heç nəyi gözləməyən, yalnız Allahın razılığını axtaran, Allahın rəhmətini, razılığını və cənnətini ümid edərək yaşayan tərtəmiz

insanlardır. Rəsullar dünyadan heçnə gözləmirlər, ancaq Allah bu səmimi və saleh qullarına dünyanın ən gözəl nemətlərini lütf edər.

Məsələn, Firon və öndə gələn çevrəsi də, hz. Musa (ə.s)-ın insanları Allahın dininə dəvət etməyi deyil, "yer üzündə böyüklüyə" çatmağı istədiyini iddia etmişlər. Ayədə belə buyurulur:

**Onlar dedilər: "Gəlmisiniz ki, bizi atalarımızın tutduğu yoldan döndərəsiniz və yer üzündə böyüklük etmək ikinizə qalsın? Biz sizə iman gətirən deyilik". (Yunis surəsi, 78)**

Eyni çirkin iftiranın hz. Nuh (ə.s)-a da yönəldildiyi ayələrdə belə xəbər verilir:

**Həqiqətən, Biz Nuhu öz qövmünə elçi göndərdik. O dedi: "Ey qövmüm! Allaha ibadət edin! Sizin Ondan başqa heç bir məbudunuz yoxdur. Məgər qorxmursunuz?"Qövmünün kafir zadəganları dedilər: "O da sizin kimi sadəcə bir insandır. Sizə böyüklük etmək istəyir. Əgər Allah elçi göndərmək istəsəydi, mələklər göndərərdi. Biz bunu ulu babalarımızdan eşitməmişik (Muminun surəsi, 23-24)**

Bu ayələr göstərir ki, inkarçıların ağılsızlıqlarından biri də rəsulları da özləri kimi adi insanlar olduqlarını zənn etmələridir. Halbuki peyğəmbərlərin hər biri Allah Qatında üstün olan mübarək insanlardır. Hz. Musa (ə.s) və digər bütün rəsullar, insanları özlərinə itaətə çağırırlar; amma onlardan Allah rizası üçün özlərinə itaət etmələrini istəyirlər. Yoxsa istənilən şəxsi itaət deyil. Rəsul da, ona iman edib itaət edənlər də Allahın qullarıdırlar. Bu səbəbdən Rəsul, insanları özünə itaət etməyə dəvət edərkən, əslində onları Allaha qul olmağa dəvət edir. Bu həqiqət ayələrdə belə bildirilir:

**"Heç kimə yaraşmaz ki, Allah ona Kitab, hikmət və peyğəmbərlik verdikdən sonra insanlara: "Allaha yox, mənə qul olun!" – desin. Əksinə, o deyər: "Öyrətdiyiniz Kitabın və ondan öyrəndiyiniz şeyin sayəsində din xadimləri olun!" O sizə mələkləri və peyğəmbərləri özünüzə tanrılar qəbul etməyi buyurmaz. Məgər o sizə, siz müsəlman olduqdan sonra kafir olmağı əmr edərmi? (Ali İmran surəsi, 79-80)**

Halbuki bunun müqabilində, yuxarda gördüyümüz kimi, Firon və buna bənzər öndə gələn inkarçılar böyük ağılsızlıqla özlərinin guya "ilah" (Rəbb) olduqlarını (Allahı tənzih edirik) iddia etməyə çalışırlar. Məhz bu inkarçıların tövbə edib mövqelərini dəyişdirmədikləri təqdirdə böyük əzabla qarşılıq görmələrinin səbəblərindən biridir.

## Dəlilik iftirası

Öndə gələn inkarçıların tez-tez istifadə etdikləri böhtan üsullarından biri də, rəsulu və bəzən də onunla birlikdə iman gətirənləri "dəlilik" lə günahlandırmalarıdır. Bu ağılsız günahlandırma, demək olar ki, bütün rəsullara yönəldilmişdir. Quranda, tez-tez bu mövzuya diqqət çəkilir. Məsələn, hz. Nuh (ə.s)-a "O dəlidir" deyildiyi ayələrdə belə xəbər verilir:

**Bu ancaq cinli bir adamdır. Odur ki, ona münasibətdə bir müddət gözləyin!" (Muminun surəsi, 25)**

**Onlardan əvvəl Nuh qövmü elçiləri yalançı hesab etmişdi. Onlar qulumuzu yalançı sayıb: "O, dəlidir!" - dedilər və ona hədə-qorxu gəldilər. (Qamər surəsi, 9)**

Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-ə də eyni böhtan atılmışdır. Ayələrdə belə buyurulur:

**Kafirlər dedilər: "Ey özünə Zikr nazil edilən kəs! Doğrudan da, sən dəlisən. Əgər doğru danışanlardansansa, nəyə görə dediyinə şahidlik edə bilən mələkləri bizə gətirmirsən?" (Hicr surəsi, 6-7)**

**Məgər kafirlər bu Söz haqqında düşünmürlərmi? Yaxud onlara ulu babalarına gəlməyən bir şey gəldi? Yoxsa onlar özlərinə göndərilmiş Elçini tanımayıb buna görə də onu inkar edirlər? Yaxud: "O cinlidir?" - deyirlər. Xeyr, o elçi onlara haqqı gətirmişdir. Lakin onların çoxu haqqı xoşlamır. (Muminun surəsi, 68-70)**

Eyni ittihamlar, hz. Musa (ə.s)-a qarşı da yönəldilmişdir:

**Firon dedi: "Sizə göndərilmiş bu elçi, sözsüz ki, dəlidir!" (Şuəra surəsi, 27)**

Allah, ümumi olaraq bütün qövmlərin rəsullarına bu cür ittiham etməyə meyilli olduqlarını da ayələrdə belə bildirir:

**Kafirlər dedilər: “Çürüyüb parça-parça olduqdan sonra yenidən yaradılacağınızı xəbər verən bir kişini sizə göstərəkmi? Əcəba, o, Allahın əleyhinə yalanmı quraşdırır, bəlkə onda divanəlik var?” Xeyr! Axirətə inanmayanlar əzaba düçar olacaq, dərin bir azğınlıq içində qalacaqlar.** (Səba surəsi, 7-8)

**Onlar necə öyüd-nəsihət eşidə bilərlər ki, artıq onlara açıq-aşkar bir peyğəmbər gəlsə də, onlar ondan üz çevirib: “Öyrədilmiş bir dəlidir!” – dedilər.** (Duxan surəsi, 13-14)

Öndə gələn inkarçılar, Allahın qüdrətini gərəyi kimi təqdir edə bilmədikləri üçün, rəsulun cəsarətinin, mübarizə əzminin, bu mövzudakı güc və təsirinin qaynağını da heç cür anlaya bilməzlər. Rəsulun öz həyatını təhlükəyə ataraq, çox böyük maddi gücə sahib olan öndə gələnlərlə qarşı-qarşıya gəlməyi gözə almasını qavraya bilməzlər. Çünki inkarçıların tək meyarı mənfəətdir; yalnız öz şəxsi maraqlarını güdərlər. Buna qarşı, rəsul bütün şəxsi maraqlarını dini təbliğ edə bilmək üçün fəda edir. İnkarçıların səhv məntiqinə görə bu, "dünyəvi maraqlara zidd düşəcək" davranışdır, bu səbəbdən bir növ dəlilikdir.

Halbuki, rəsul dünyadan tamamilə imtina edərkən, Allahın razılığını, rəhmətini və cənnətini qazanır ki, bunların dəyəri heç bir şeylə ölçülə bilməz. Ancaq inkarçılar şübhəsiz bunu qavraya biləcək ağıla sahib deyildirlər.

## Cadugərlik iftirası

Quran ayələri bizə göstərir ki, öndə gələn inkarçıların ənənəvi daha bir anlayış çətinliyi vardır: Bu kəslər, necə olub da bəzi kəslərin rəsula itaət etdiyini heç cür anlaya bilməzlər. Çünki qövmün böyük hissəsi rəsula qarşı çıxsa da, bəzi kəslər – ki, bunlar mömünlərdir – rəsulun bildirdiyi gerçəkləri qavramış və ona könüldən bağlanmışlar. İman edənlər, rəsulun Allahın elçisi olduğunu, Onun hökmüylə hökm etdiyinin şüurundadırlar və buna görə də ona qarşı böyük sədaqət, hörmət və sevgi ilə bağlıdırlar.

Bu öndə gələn inkarçılar üçün başa düşülməsi çətin olan vəziyyətdir. Onların yanlış baxış aspektinə görə, rəsulun izah etdikləri **"keçmişdəkilərin əfsanələrindən"** (Muminun surəsi, 83) başqa bir şey deyil. Halbuki "nağıl" saydıqları bu gerçəklərə möminlər böyük bağlılıqla bağlanırlar. Bu vəziyyəti anlaya bilməyən öndə gələn inkarçılar, rəsulun Allahın lütfü ilə sahib olduğu hikməti və təsir edici izahı, onu cadugərliklə ittiham edərək öz zəif ağıllarına görə şərh etməyə çalışırlar. Tez-tez istifadə etdikləri bu yalana görə, rəsul ətrafındakıların beynini yuyur, guya onları ovsunlayır. Halbuki elçiləri onlara tabe olan möminlərin beyinlərini, cahillik əxlaqının hər cür pislikdən və çirkinliyindən təmizləyərək, inkarçıların əsla anlaya bilməyəcəyi çox dəyərli və qiymətli gözəlliyə vəsilə olurlar.

Quranda inkar edənlərin bu iftirası belə xəbər verilir:

**İçərilərindən bir adama: "İnsanları qorxut və iman gətirənləri müjdələ ki, özlərinin Rəbbi yanında onların etdikləri yaxşılıqların mükafatı vardır!" - deyə vəhy etməyimiz insanlara qəribəmi göründü? Kafirlər: "Sözsüz ki, bu, açıq-aşkar bir sehrbazdır!" - dedilər. (Yunis surəsi, 2)**

**Öz aralarından onlara xəbərdarlıq edən bir peyğəmbər gəldiyinə təəccüb edərək kafirlər dedilər: "Bu, yalançı bir sehrbazdır! O, bütün məbudları bir məbudmu etdi? Həqiqətən, bu, əcaib bir şeydir" (Sad surəsi, 4-5)**

Eyni ittihamlar hz. Musa (ə.s)-a qarşı da edilmişdir. Bunu xəbər verən ayələr belədir:

**"Musanın əhvalatında da ibrət vardır. O zaman Biz onu Fironun yanına aydın bir dəlillə göndərmişdik. O, öz camaatı ilə birlikdə üz çevirib: "Bu sehrbazdır, ya da dəlidir!" - dedi. (Zəriyət surəsi, 38-39)**

**"Firon xalqının əyanları dedilər ki: "Bu, həqiqətən, çox bilikli bir sehrbazdır." (Əraf surəsi, 109)**

**Biz Musanı möcüzələrimizlə və aşkar bir dəlillə göndərdik -Fironun, Hamanın və Qarunun yanına. Onlar isə: "Bu, yalançı bir sehrbazdır!" - dedilər. (Mümin surəsi, 23-24)**

Quranda bu "cadugərlik" ittihamlarının inkarçılar arasında az qala ənənəviləşmiş olduğu da belə bildirilir:

**Beləcə, onlardan əvvəlkilərə də elə bir elçi gəlmədi ki, onun barəsində: "Sehrbazdır, ya da dəlidir!" - deməsinlər. Onlar bunu bir-birinə vəsiyyətmi etmişlər? Xeyr, onlar həddi aşan adamlardır. (Zəriyət surəsi, 52-53)**

## Yalançılıq iftirası

Bütün bu yuxarıda qeyd etdiyimiz iftiralarla yanaşı, Quranda xəbər verilən başqa iftira da, öndə gələnlərin rəsulu "yalançılıq"la günahlandırmalarıdır.

Öndə gələnlərin ən böyük narahatlıqlarından biri, rəsulun izah etdiyi gerçəklərin qəbul edilməsi, Allahın əmr etdiyi gözəl əxlaq sisteminin qövm tərəfindən mənimsənilməsidir. Bu vəziyyətdə öz batil (boş, əsassız, saxta, yalana əsaslanan) sistemləri çökəcək və öz güc və iqtidarları da dağılacaq.

Yuxarıda saydığımız böhtanlar da (rəsulu mənfəət arxasınca qaçmaqla günahlandırmaq, dəlilik və cadugərlik iftiraları), əslində rəsulu öz ağıllarına görə yalanlamağa istiqamətlidir. Etmək istədikləri, rəsulun Allahın elçisi olduğunu və bu səbəbdən bütün bildirdiklərinin də gerçəyin məhz özü olduğunu gizləməkdir. Əks halda, demək olar ki, heç kim "mən Allahın elçisinə qarşı gəlirəm" deyərək rəsula açıq şəkildə düşmənçilik edə bilməz.

Quranda, rəsullara qarşı edilən "yalançılıq" ittihamları belə xəbər verilir:

**Qövmünün kafir zadəganları dedilər: "Biz səni səfeh sayırıq və həqiqətən də, səni yalançılardan hesab edirik!" (Əraf surəsi, 66)**

**Onun qövmünün kafir zadəganları dedilər: "Biz səni özümüz kimi sadəcə bir insan hesab edir və içimizdən ancaq düşüncəsiz olan ən rəzil adamların sənə qoşulduğunu görürük. Həmçinin sizin bizdən üstün olduğunuzu da görmürük. Əksinə, biz sizi yalançı hesab edirik". (Hud surəsi, 27)**

**Səmud qövmü də xəbərdarlıqları yalan saydı. Onlar dedilər: "Özümüzdən olan bir adamamı tabe olacağıq? Onda biz azğınlığa düşər və ağılsız iş görmüş olarıq! Zikr aramızdan təkcə onamı verildi? Xeyr, o, yalançıdır, lovğadır!" (Qəmər surəsi, 23-25)**

Rəsula və onunla birlikdə iman edənlərə qarşı istifadə edilən üsullar yalnız bunlarla məhdud deyil. İnkar edənlər, Quranda xəbər verilən, **"Biz səndən öncə də əvvəlki millətlərə elçilər göndərmişdik. Onlara elə bir elçi gəlməzdi ki, ona istehza etməsinlər."** (Hicr surəsi, 10-11) hökmü gərəyi möminlərə lağ etməyə, öz ağıllarına görə onları hörmətdən salmağa çalışırlar. Bununla yanaşı, öz əxlaqsızlıqlarını və çirkin həyatlarını göz ardı edib, tərtəmiz olan rəsulu və iman edənləri zəif ağıllarına görə "azğınlıq"la, hətta "əxlaqsızlıq"la günahlandırarlar. Hz. Yusif (ə.s) və hz. Məryəm inkar edənlərin bu "əxlaqsızlıq" iftirasıyla qarşılaşmışdır. Ancaq bu böhtanların hər biri tarix boyunca yaşamış bütün elçilər, rəsul, nəbi və saleh möminlər üçün onların Allah yanında və digər möminlərin nəzdində dəyərlərini qat-qat artıran şərəf olmuşdur.

Şübhəsiz bütün bu böhtanlar nə rəsulu, nə də onunla birlikdə iman gətirənləri əsla yormaz. Çünki iman edənlərin əsl hədəfi Allahın razılığını, rəhmətini və cənnətini qazanmaqdır. Bu səbəblə də önlərinə çıxan maneələr səmimi iman edənləri heç bir şəkildə yormaz və ya zəifliyə vadar etməz. Onsuz da Allah ayələrində iman edənlərə nə kimi çətinliklərlə qarşılaşa biləcəklərini bildirmişdir.

Qurandakı, **"Siz hökmən malınız və canınızla sınaqdan keçiriləcəksiniz. Sizdən əvvəl Kitab verilənlərdən və müşriklərdən bir çox əziyyətverici sözlər eşidəcəksiniz. Əgər səbir edib Allahdan qorxsanız, bilin ki, bu, əzmkarlıq tələb edən əməllərdəndir."** (Ali İmran surəsi, 186 ) ayəsində mömin bilir ki, inkar edənlər özünə qarşı hər cür "əziyyət verici" sözü söyləyəcəklər. Amma rəsul və yanındakı iman edənlər, Quranda mömünlər üçün bildirilən, **"... Allah yolunda əhd edən və tənə edənin tənəsindən qorxmayan ..."** (Maidə surəsi, 54) xüsusiyyətinə uyğun olaraq, bu iftira və qaralamalara qulaq asmazlar.

Şübhəsiz inkarçı öndə gələnlər də bir müddət sonra bu vəziyyəti fərq edəcək, rəsula və möminlərə atdıqları böhtanların gözlədikləri nəticəni meydana gətirmədiyini görəcəklər. Bu vəziyyətdə öndə gələnlərin klassik rəftarı, öz ağıllarına görə daha "təsirli" üsullara üz tutmaqdır: Heç bir zaman gözlədikləri nəticəni ala bilməyəcəkləri üçün başqa çirkinliyə yönələr və özlərinə görə rəsulu "təzyiq altına almağa" qərar verərlər.

## Rəsula yönəldilən feli hücumlar

Rəsul Allahın dinini insanlara izah etdikcə, qövmün öndə gələnlərindən aldığı qarşılığın şiddəti də getdikcə artar. Öndə gələnlər, rəsulun liderliyindəki haqq dinin qarşısı alına bilməz şəkildə böyüdüyünü və istifadə etdikləri iftira və buna bənzər üsullarının işə yaramadığını gördükdə tələ qurmaq kimi özlərinə görə daha "təsirli" üsullara üz tutmağa qərar verərlər.

Quranda, Rəsula hazırlanan "tələ" bildirilərkən belə xəbər verilir:

**Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya yurdundan qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır. (Ənfal surəsi, 30)**

Buna görə, inkarçıların hədəfi, rəsulu həbs etdirmək, şəhid etmək, ya da sürgün etməkdir. Ayədə bəhs edilən "tələ" sözü də diqqət çəkicidir: İnkar edənlər rəsula açıq-aşkar müdaxilə etmək yerinə, "tələ" yəni sui-qəsd quraraq onu dayandırmaq istəyərlər. Bu sui-qəsd, rəsulun həbs olunmasına, şəhid edilməsinə, ya da sürgün edilməsinə səbəb ola biləcək sui-qəsddir.

Ancaq yenə ayədə bildirildiyi üzrə, inkar edənlər rəsula bu şəkildə əsla zərər verə bilməzlər. Rəsulu Allah vəzifələndirmişdir və vəzifəsini tamamlayana qədər də Allah onu qoruyacaq. Və əsl ziyana uğrayanlar, ayədə bildirildiyi kimi, rəsula tələ quranlar olacaq.

Quranda daha bir çox ayədə rəsullara qarşı başladılan feli hücumlardan bəhs edilir. Demək olar ki, bütün rəsullar, öndə gələnlər tərəfindən şəhid edilməklə, həbs və ya işgəncə ilə təhdid edilmişlər və çox zaman da bunlar təhdidlə qalmamış, hərəkəti hücuma çevrilmişdir.

## Rəsulları sürgün etməyə çalışmaları

Allahın Quranda bildirdiyi kimi, inkar edənlərin rəsulları öz zəif ağıllarına görə təsirsiz hala gətirmək üçün qurduqları tələlərdən biri də onları sürgün etməkdir. İnkar edənlər rəsulu və onunla birlikdə möminləri olduqları ortamdan, yaşadıqları yerdən sürgün edib çıxarınca dağılmalarını təmin edə biləcəklərini, gücdən salıb yox edə biləcəklərini zənn edirlər. Onları bu üsulla təsirsiz hala gətirəcəklərini hesablayan inkarçıların, peyğəmbərləri və yanlarında olan möminləri sürgün etmələri, ya da buna təşəbbüs etmələri bir çox ayədə xəbər verilir.

Azğın qövmlərinin içində təmiz və iffətli yaşamağa çalışdıqları üçün yurdlarından çıxarılmaq istənən hz. Lut (ə.s) və ailəsi ayələrdə nümunə verilən müsəlmanlardan yalnız biridir. Hz. Lut (ə.s)-ın təbliğinə cavab olaraq qövmünün verdiyi istehzalı cavab Quranda belə xəbər verilmişdir:

**Qövmünün cavabı isə ancaq: “Lutun ailəsini kəndinizdən çıxarın. Çünki onlar təmiz qalmaq istəyən adamlardır!” – demələri oldu. (Nəml surəsi, 56)**

Hz. Lut (ə.s) öz tayfasına əxlaqsızlığa yaxınlaşmamalarını, Allahın sərhədlərini aşmamağı, əxlaqsızlığı, iyrənc əməli tərk etməyi nəsihət etmişdir. Azğın Lut qövmü bu səbəblə hz. Lut (ə.s)-ı və ailəsini şəhərlərindən çıxarmaq istəmişdir. Ancaq, Allahın əmri ilə hz. Lut (ə.s)-ın yaşadığı şəhəri tərk etməsinin dərhal ardından Allah o şəhəri yerlə bir etmiş, altını üstünə çevirmiş, bu qiymətli insana və digər möminlərə inkarçıların qurduqları tələni dağıtmışdır. Bu gerçək ayələrdə belə bildirilir:

**Əmrimiz gəldikdə oranın altını üstünə çevirdik və odda bişmiş gil daşları ardıcıl olaraq onların üstünə yağdırdıq. O daşlara Rəbbinin yanında işarə qoyulmuşdur. Onlar zalımlardan da uzaq deyildir. (Hud surəsi, 82-83)**

Allahın varlığını və birliyini təbliğ etdiyi, Qurana dəvət etdiyi və pislikdən uzaqlaşmağa çağırdığı üçün Peyğəmbərimiz (s.ə.v) və ona tabe olan möminlər də öz qövmləri tərəfindən yurdlarını tərk etməyə, yəni hicrətə məcbur buraxılmışlar.

Allah, rəsullarını öz yurdundan çıxaranların aqibətinin məhv olduğunu ayəsində belə xəbər verir:

**Səni qovub çıxaran məmləkətindən daha qüvvətli neçə-neçə məmləkətlər var idi ki, Biz onları məhv etdik və onlara bir kömək edən də olmadı (Məhəmməd surəsi, 13)**

Bu, Allahın hər dövrdə davam edən qanunudur. İnsanları, dinlərinə görə yurdlarından qovub çıxaranların özlərinin də orada çox qalmaları mümkün deyil. Çünki inkar edənlərin möminlərin əleyhinə qurduqları bütün tələ cəhdləri hər dövr pozulmuşdur. Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) də tərk etmək məcburiyyətində buraxıldığı Məkkəyə daha sonra onu müşayiət edən minlərlə möminlə birlikdə geri qayıtmış və inkar edənlərə qarşı mütləq üstünlük təmin etmişdir. Məkkədən onları sürgün edənlərin ümid etdiklərinin əksinə ayrılıb dağılmamışlar. Tam tərsinə daha çox güclənib qaynaşmışlar və Allahın izni ilə inkarçılara qalib gəlmişlər. Bu da möminlər əleyhinə qurulan heç bir ittifaqın müvəffəqiyyətli ola bilməyəcəyini göstərməsi baxımından çox əhəmiyyətlidir.

## Həbs etmək və zindana atmaq istəmələri

Rəsulları Allahın yolundan uzaqlaşdırmaq, öz ağıllarına görə onları qorxutmaq və təsirsiz hala gətirə bilmək üçün inkarçıların öndə gələnləri tərəfindən tətbiq olunan metodlardan biri də onları həbs etməkdir. Gerçəkdə, inkar edənlərin öndə gələnləri, rəsulları və digər iman edənləri tamamilə yox etmək istəyirlər. Çünki varlığından ən çox narahatlıq duyduqları kəslər onlardır. Bu səbəblə hər nə bahasına olursa olsun qeyri-qanuni mənfəət və nizamlarını qorumaq və davam etdirə bilmək üçün rəsulları təsirsiz hala gətirməyə çalışırlar.

Məsələn, Firon çəkindiyi hz. Musa (ə.s)-ı, özünə tabe olmadığı təqdirdə həbsə atmaqla təhdid etmişdir. Çünki öz zəif ağlına görə onu nəzarət altında saxlamağın ən yaxşı yolunun həbs etmək olduğunu düşünmüşdür. Fironun bu təhdidi ayədə belə xəbər verilir:

**(Firon) dedi ki: "Əgər məndən başqa tanrı qəbul etsən, səni mütləq dustaq edəcəyəm." (Şuəra surəsi, 29)**

İslam tarixi araşdırıldığında, Allah yolunda mübarizə aparan insanların davamlı olaraq inkar edənlərin təzyiqinə, zülmünə və əngəlləmələrinə məruz qaldıqları görülür. Peyğəmbərlərin izindən gedən səmimi möminlər də onların başına gələn çətinliklərin və sıxıntıların bənzərləriylə sınanmışlar. Həyatlarını Allahın razılığını axtarmağa həsr etmiş möminləri, inkar edənlər hər zaman öz yanlış həyat formaları üçün təhdid olaraq görmüşlər. İnkarçıların öndə gələnlərinin davamlı nəzarəti və təqibi altında olmaq, onlar tərəfindən həbs edilmək tarix boyunca Allah yolunda mübarizə aparan insanların qarşılaşdıqları hadisələrdir.

Ancaq unudulmamalıdır ki, kənardan baxıldığında son dərəcə çətin və əziyyətli görünən bu cür vəziyyətlər, Allaha tam təslimiyyətlə təslim olmuş, yalnız Ona təvəkkül etmiş möminlər üçün mənəvi təhsil ortamıdır. Allahın razılığını, rəhmətini və cənnətini ümid edən möminlər üçün bu cür çətinliklər gerçəkdə sevinc və rahatlıq qaynağı, təmizlənmə vəsiləsidir. Allaha daha çox yaxınlaşma və Onun ayələrinə şahid olma və möminlər üzərindəki yaxın təqibini izləmə fürsətidir.

Necə ki, iman edənlərin cəsarəti ayələrdə bu şəkildə ifadə edilmişdir:

**"... De: “Çağırın şəriklərinizi! Sonra mənə qarşı hiylə qurun və mənə heç möhlət də verməyin! Həqiqətən, mənim himayədarım Kitabı nazil edən Allahdır. O, əməlisalehlərə himayəçilik edir. (Əraf surəsi, 195-196)**

## Təzyiq göstərmək, öz ağıllarına görə sıxışdırma və qorxutma səyləri

Allah möminlərin səbir, təvəkkül, bağlılıq və qətiyyətlərini sınamaq, onların mənəvi mövqe və mükafatlarını artırmaq üçün müəyyən zamanlarda onları müxtəlif şəkillərdə imtahan edə bilər. Bunun nümunələrindən biri ayədə belə xəbər verilir:

**Yadınıza salın ki, bir zaman siz az idiniz, yer üzündə zəif sayılırdınız; kafir adamların sizi ələ keçirəcəyindən qorxurdunuz. Allah sizə sığınacaq verdi, Öz köməyi ilə sizi qüvvətləndirdi və sizə pak ruzilərdən verdi ki, bəlkə şükür edəsiniz. (Ənfal surəsi, 26)**

Nə qədər zəif buraxılmış görünsələr də Allahın rəhməti və köməyi hər zaman möminlərlə birlikdədir. Başqa ayələrdə də Allahın möminləri dəstəkləmək üçün göndərdiyi ordulardan belə bəhs edilir:

**Ey iman gətirənlər! Allahın sizə göstərdiyi iltifatını xatırlayın. O zaman ki, düşmən ordusu sizin üstünüzə hücuma keçmişdi, Biz də onların üstünə külək və görmədiyiniz qoşunlar göndərmişdik. Allah sizin nə etdiyinizi görür. O zaman onlar sizin həm yuxarı və həm də aşağı tərəfinizdən üstünüzə gəlmişdilər. O vaxt qorxudan gözlər bərəlmiş, ürəklər xirtdəyə çatmış və siz də Allah barəsində zənnə-gümana qapılmışdınız. Orada möminlər imtahana çəkilmiş və güclü sarsıntıya məruz qalmışdılar (Əhzab surəsi, 9-11)**

Tarixin hər dövründə inkar edənlər müxtəlif hiylələrlə iman gətirənlər üzərinə qorxu salmağa, öz ağıllarına görə onları döndərməyə çalışıblar. Ən sıx olaraq da hücumlarını rəsullara istiqamətləndirmişlər. Lakin möminlər bütün gücün Allaha aid olduğunu bildikləri üçün, inkar edənlərin bu hücumlarından dolayı ümidsizliyə ya da çarəsizliyə düşməmişlər.

Möminlər bu cür çətin anlarla qarşılaşdıqlarında, bunların Allah və rəsulunun əvvəldən xəbər verdiyi hadisələr olduğunu bildikləri üçün təmkin və təvəkküllərini itirməmiş, əksinə imanları artmışdır.

Möminlərin bu qərarlı rəftarları ayədə belə təsvir edilir:

**Möminlər müttəfiqləri gördükdə: "Bu, Allahın və Onun Elçisinin bizə olan vədidir. Allah və Onun Elçisi doğru söyləmişlər!" - dedilər. Bu onların yalnız imanını və itaətini artırdı. (Əhzab surəsi, 22)**

## Şəhid etməyə cəhd etmələri

İnkar edənlərin rəsullara yönəltdiyi ən qəddar təzyiq üsullarından biri də dünyanın ən üstün və ən gözəl əxlaqlı insanlarını şəhid etməyə çalışmaqdır. İnkar edənlərin öndə gələnləri demək olar ki, hər dövrdə bu yola üz tutmuşlar. Rəsulu və onunla birlikdə Allaha iman etmiş kəsləri yollarından saxlamaq üçün içlərindən bir qismini şəhid etmiş, ya da şəhid etməyə təşəbbüs etmişlər. Xüsusilə rəsulları şəhid edərək, Allahın dinini yox edə biləcəklərini, digər iman edənləri də bu şəkildə dinlərindən döndərə biləcəklərini zənn etmişlər. Qövmünün hz. Şüeyb (ə.s)-ı daşa tutub şəhid etmə arzusu, inkar edənlərin Allah yolunda olan kəslərə qarşı bəslədiyi böyük kin və düşmənçiliyin nümunəsidir. Ayədə belə buyurulur:

**Onlar dedilər: "Ey Şueyb! Dediklərinin çoxunu anlamırıq. Biz səni aramızda zəif görürük. Əgər qəbilən olmasaydı, səni daşqalaq edərdik. Sən bizim üçün heç də böyük bir adam deyilsən" (Hud surəsi, 91)**

Firon və yaxın ətrafı da hz. Musa (ə.s)-ı şəhid etmək üçün planlar qurarkən hz. Musa (ə.s) Allahın köməyi ilə onların bu tələlərindən xəbərdar olmuş və Allahın diləməsiylə xilas olmuşdur:

**Şəhərin kənarından bir kişi qaça-qaça gəlib dedi: "Ey Musa! Zadəganlar səni öldürmək barəsində məşvərət edirlər. Çıx get! İnan ki, mən sənin yaxşılığını istəyənlərdənəm!" (Qəsas surəsi, 20)**

İnkarçıların rəsulları öz ağıllarına görə təsirsiz hala gətirə bilmək üçün üz tutduqları qaçırma və bir yerdə tək-tənha həbs etmə ilə şəhid etmə kimi üsulları da vardır. Məsələn, əvvəl də bəhs etdiyimiz kimi hz. Yusif (ə.s), qardaşları tərəfindən quyuya atılaraq ətraf şərtlərinə görə aclıq və ya susuzluqdan ölməyə tərk edilmişdir.

Hz. İbrahim (ə.s)-ın qövmü isə, onların bütlərini qıran və alçaldan bu müqəddəs peyğəmbəri atəşə atacaq qədər azğınlıq göstərmişlər. Ancaq Allah rəsulunu bu çətin görünən vəziyyətdən möcüzəvi şəkildə xilas etmişdir. Ayədə hz. İbrahim (ə.s)-la əlaqədar olaraq belə xəbər verilir:

**Qövmünün cavabı isə ancaq: "Ya onu öldürün, ya da yandırın!" - demələri oldu. Lakin Allah onu oddan qorudu. Doğrudan da, bunda mömin adamlar üçün mənimsəməli bir ibrət vardır. (Ənkəbut surəsi, 24)**

Yuxarıdakı ayədə də bildirildiyi kimi, inkarçıların hz. İbrahim (ə.s)-ı "yandırma" səyləri boşa çıxmış və Allah onu xilas etmişdir. Çünki rəsullar, **"...Allah səni insanlardan qoruyacaq..."** (Maidə surəsi, 67) hökmüylə Allahın mühafizəsi altındadırlar. İnkar edənlər, Allahın diləməsi xaricində, nə möminlərə, nə də rəsula heç bir zərər verə bilməzlər.

# İnkarçıların rəsullara qurduğu tələlər başdan pozulmuş olaraq qurulur

İnkar edənlər bəzi fiziki tədbirlər alaraq, öz aləmlərində rəsulların təbliğini dayandıra biləcəklərini zənn etmişlər. Çünki Allahın hər şeyi qədərdə təsbit etmiş olduğunu, hər zaman möminlərin köməkçisi olduğunu düşünməmişlər. Rəsulların mübarizəsinin qarşısını almaq məqsədi ilə müxtəlif yollara üz tutmuşlar, hansı ki, bu tələləri qurarkən daha ən başından pozulacaq və öz əleyhlərinə dönəcək şəkildə qurmuşlar. Nə qədər əhatəli və ağıllı şəkildə hazırlanmış olursa olsun inkarçıların tələləri qəti olaraq pozulmağa məhkumdur. Çünki bu, Allahın Quranda xəbər verdiyi vəddir.

İnkar edənlərin qurduğu tələlərin boşa çıxacağı və öz əleyhlərinə dönəcəyinin xəbər verildiyi Quran ayələrindən bəziləri bunlardır:

**... Həqiqətən də, Allah kafirlərin hiyləsini zəiflədər.. (Ənfal surəsi, 18)**

**... Amma bilin ki, kafirlərin hiyləsi boşa çıxar. (Mümin surəsi, 25)**

**Onlar hiylə qurdular, Biz də hiylə qurduq. Lakin onlar bunu hiss etmədilər. Bax gör onların hiylələrinin aqibəti necə oldu. Biz onları bütün tayfalarıyla birlikdə yerlə-yeksan etdik. (Nəml surəsi, 50-51)**

**Yoxsa bir hiylə qurmaq istəyirlər? Amma kafirlər özləri o hiylənin qurbanı olacaqlar. (Tur surəsi, 42)**

**... Onlara qorxudan peyğəmbər gəldikdə isə bu, onların ancaq nifrətini artırdı. Bütün bunlar onların yer üzündə təkəbbür göstərmələrinə və yaramaz hiyləgərliklər törətdiklərinə görə idi. Yaramaz hiylələr isə ancaq öz sahiblərini qaplayar. Onlar əvvəlkilərin başlarına gələn aqibətdən başqasınımı gözləyirlər? Sən Allahın qayda-qanununa heç bir əvəz tapa bilməzsən, Allahın qayda-qanununda heç bir dəyişiklik də tapa bilməzsən. (Fatir surəsi, 42-43)**

Rəsullar əleyhinə inkar edənlər tərəfindən hazırlanan və şər kimi görünən hər cür hiylə, tələ, nizam, böhtan və sui-qəsd qəti olaraq çox böyük xeyirə çevrilər. Çünki Allahdan ayrı güc yoxdur. Hər tələni Allah yaradır. Allah qədərdə, inkarçıların möminlərə qarşı qurduqları tələləri, mütləq pozulacaq və möminlərin faydasına, inkarçıların isə zərərinə olacaq şəkildə təqdir etmişdir. Müsəlmanlara qarşı tələ hazırlayan insan bunu öz ağlıyla etdiyini zənn edər. Halbuki bu insan da Allaha boyun əymişdir. Ən kiçik dəyişiklik olmadan eynisiylə Allahın əmr etdiyi tələni qurar, mömin də yenə Allahın əmr etdiyi şəkildə heç bir dəyişiklik olmadan tələnin pozulmasına şahid olar. İnkar edənlərin qurduqları tələnin özlərinə zərər verəcəyi Quranda belə bildirilmişdir:

**Onlardan əvvəlkilər də hiylə qurdular. Halbuki bütün hiylələr Allaha aiddir. O, hər kəsin nə qazandığını bilir. Kafirlər Axirət yurdunun kimin olacağını biləcəklər. (Rad surəsi, 42)**

**Beləliklə hər bir ölkədə oranın günahkarlarını başçılar təyin etdik ki, onlar orada mümkün qədər yaramaz işlər görsünlər. Halbuki onlar o yaramaz işləri yalnız özlərinə qarşı edirlər və bunu da hiss etmirlər. (Ənam surəsi, 123)**

Quranda inkar edənlərin qurduqları tələnin böyüklüyü və şiddəti nə olursa olsun Allahın qurduğu tələnin qarşısında hər hansı nəticəyə çata bilməyəcəyi xəbər verilir. Rəsullara qarşı qurulan hiyləli tələlər, kənardan zahiri gözlə baxanlar üçün onların çətin vəziyyətə düşdükləri hadisələr kimi görünə bilər. Ancaq Allahın tələ quranlar üçün hazırlanmış nizamı vardır və Allah elçilərə olan vədini qəti olaraq yerinə yetirər. Bu, Allahın dəyişməz qanunudur. Bu qanun bir çox Quran ayəsində xəbər verilmişdir. Bunlardan bəziləri belədir:

**Bizim elçi göndərdiyimiz qullarımız haqqında bu Sözümüz əzəldən deyilmişdi: "Həqiqətən, onlara kömək göstəriləcəkdir. Bizim əsgərlərimizin mütləq qələbəsi labüddür". (Saffat surəsi, 171-173)**

**Biz Musa ilə Haruna da nemət bəxş etdik. Onların hər ikisini və tayfalarını böyük sıxıntıdan qurtardıq. Onlara kömək göstərdik və qalib gəldilər. (Saffat surəsi, 114-116)**

**Allah əzəldən belə yazmışdır: "Mən və elçilərim hökmən qalib gələcəyik!" Həqiqətən, Allah Qüvvətlidir, Qüdrətlidir. (Mücadilə surəsi, 21)**

**Kim Allahı, Onun Elçisini və iman gətirənləri özünə dost tutarsa, bilsin ki, qələbə çalanlar da məhz Allahın firqəsidir. (Maidə surəsi, 56)**

Rəsulların həyatı inkar edənlərin tələlərinə qarşı qazanılan qələbə nümunələriylə doludur. Məsələn; Firon bütün oğlan uşaqlarını öldürmüş, öz ağlına görə qorxuducu tədbirlər almış, inananlara əziyyət etmiş, ancaq hz. Musa (ə.s)-a mane ola bilməmişdir.

Məkkəli müşriklər hicrəti əsnasında Peyğəmbərimiz (s.ə.v)-in arxasınca düşərək onu şəhid etmək istəmişlər, ancaq Allah onu bir mağarada möcüzəvi şəkildə inkarçılardan qorumuşdur.

Qövmü, hz. İbrahim (ə.s)-a tələ quraraq atəşə atmış, lakin Allah atəşi əmin-amanlıq edərək onu qurtarmışdır.

Hz. Yusif (ə.s)-ı qardaşları quyuya ataraq şəhid etmək istəmişlər, ancaq Allah bütün tələlərini tərsinə çevirərək hz. Yusif (ə.s)-ı oradan xilas edib xəzinələrin başına gətirmişdir.

Hz. İsa (ə.s)-a da tələ qurulmuş, onu şəhid etmək istəyərkən də Allah hz. İsa (ə.s)-ı göyə yüksəltmiş, yenə heç gözləmədikləri şəkildə inkarçıların tələlərini pozmuşdur. Allah dilədiyini dilədiyi şəkildə yaradan və rəsullarına mütləq qələbə yetirəndir.

## Allah bütün tələlərdən xəbərdardır

Allahın gücünün fərqində olmayan inkarçılar rəsulların əleyhinə qurduqları tələləri aralarında gizli-gizli görüşərkən bunlardan kimsənin xəbəri olmadığını düşünürlər. Bağlı qapılar arxasında olmanın da gətirdiyi rahatlıqla zalımcasına və ədalətsiz qərarlar alırlar. İnkarçıların, bu planları qurarkən özlərini heç kimin görmədiyini düşünmələri əslində çox böyük yanılmadır. Çünki gizlinin gizlisini bilən Allah, bu planlardan ən incə təfərrüatına qədər xəbərdardır. Allah hər yerdədir. Hər sözü eşidər, hər şeyi görər. Allah bu çox əhəmiyyətli gerçəyi ayəsində belə bildirmişdir:

**Məgər Allahın göylərdə və yerdə olan hər şeyi bildiyini görmürsən? Üç nəfərin arasında gedən elə bir xəlvəti söhbət yoxdur ki, onların dördüncüsü, beş nəfərin də altıncısı O olmasın. İstər bundan az, istərsə də çox olsunlar - harada olursa olsunlar, Allah onların yanındadır. Sonra Qiyamət günü onlara nə etdiklərini xəbər verəcəkdir. Allah hər şeyi bilir. (Mücadilə surəsi, 7)**

Pis işləri təşkil edən, yaxşıların əleyhinə planlar quran, güclərini birləşdirən inkarçıların, pisliklərini gizləmə səylərinin nə qədər boş və faydasız olduğu Quranda bir çox ayədə xəbər verilmişdir:

**Onlar öz günahlarını insanlardan gizlədir, Allahdan isə gizlətmirlər (Ondan çəkinmirlər). Halbuki onlar Allahın razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə, O, onların yanında olur. Allah onların nə etdiklərini əhatə edir. (Nisa surəsi, 108)**

**Aranızdan sözü gizlədənlər də, onu açıq deyənlər də, gecə gizlənib, gündüz gəzib dolananlar da Allah üçün eynidirlər. (Rad surəsi, 10)**

**Zalımların etdikləri əməllərdən Allahın xəbərsiz olduğunu sanma. Allah sadəcə onları cəzalandırmağı gözlərin bərələ qalacağı günə saxlayır. (İbrahim surəsi, 42)**

Hiylə quranlar etdiklərinin qarşılığını bəzən dərhal görmədikləri üçün böyük aldanışa qapılarlar. Allahın elçisinin bütün xəbərdarlıqlarına baxmayaraq etdikləri pisliklərə ara vermədən davam edərlər. Halbuki Allah onların zərər vermək məqsədiylə qurduğu hər plandan xəbərdardır. Yalnız onlara müəyyən müddət verir. Məhz Rəbbimizin bu vədini bilən möminlər də təvəkkül və səbirlə zalımları gözləyən sonu gözləyərlər. Ayələrdə belə buyurulur:

**Hələlik Mən onlara möhlət verirəm. Şübhəsiz ki, Mənim kafirlər üçün qurduğum hiyləm çox güclüdür. (Qələm surəsi, 45)**

**Həqiqətən, kafirlər hiylə qururlar. Mən də hiylə qururam. Kafirlərə hələ möhlət ver! Onlara bir az da möhlət ver. (Tariq surəsi, 15-17)**

**Qoy kafirlər əzabdan qaça biləcəklərini zənn etməsinlər. Çünki onlar ondan yaxa qurtara bilməzlər. (Ənfal surəsi, 59)**

**Nuh gəmini düzəldir, qövmünün zadəganları isə hər dəfə yanından keçdikcə onu ələ salırdılar. O isə deyirdi: “Əgər siz bizi ələ salırsınızsa, biz də sizi, siz bizi ələ saldığınız kimi ələ salacağıq. Siz rüsvayedici əzabın kimə gələcəyini və daimi əzabın kimə üz verəcəyini mütləq biləcəksiniz”. (Hud surəsi, 38-39)**

**Səndən əvvəlki elçilərə də istehza edilmişdi. Mən kafirlərə möhlət verdim, sonra isə onları yaxaladım. Bir görəydin onları cəzalandırmağım necə oldu! (Rad surəsi, 32)**

Allahın Quranda qəti olaraq vəd etdiyi kimi möminlərə qurulan bütün tələlər pozulmağa məhkumdur. Allahın bu həqiqəti müjdələdiyi ayələrdən bəziləri belədir:

**Onlar İbrahimə qəsd etmək fikrinə düşdülər, lakin Biz onları daha şiddətli cəzaya məruz qoyduq. (Ənbiya surəsi, 70)**

**Kim qüdrət sahibi olmaq istəsə, bilsin ki, qüdrət bütünlüklə ancaq Allaha məxsusdur. Gözəl söz Ona tərəf yüksəlir və onu ucaldan yaxşı əməldir. Pis əməllər işlədib hiyləgərlik edənləri şiddətli bir əzab gözləyir. Onların qurduqları hiylələr də boşa çıxacaqdır. (Fatir surəsi, 10)**

**Yoxsa bir hiylə qurmaq istəyirlər? Amma kafirlər özləri o hiylənin qurbanı olacaqlar. (Tur surəsi, 42)**

# RƏSULUN VƏ MÖMİNLƏRİN HÜCUMLARA QARŞI RƏFTARLARI

Şübhəsiz rəsula və möminlərə qarşı edilən hücumlar, iman etməyən insanları yorub qorxudacaq qədər ciddi hücumlardır. Məsələn, Firon, əvvəl öz tərəfində olub, amma sonradan hz. Musa (ə.s)-ın, Allahın lütfü ilə göstərdiyi möcüzələr nəticəsində hz. Musa (ə.s)-a iman edən kəsləri belə təhdid etmişdir:

**Firon dedi: "Mən sizə izin verməmişdən əvvəl siz ona iman gətirdiniz? Şübhəsiz ki, o sizə sehr öyrədən böyüyünüzdür. Mən sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsdirib xurma ağaclarının gövdələrində çarmıxa çəkəcəyəm. Onda hansımızın əzabının daha şiddətli və daha sürəkli olduğunu biləcəksiniz!" (Taha surəsi, 71)**

Əlbəttə bu, iman etməyən, ya da imanı zəif olan çox insan üçün olduqca qorxuducu təhdiddir. Ancaq iman edən bu kəslər, Fironun bu təhdidindən qətiyyən təsirlənməmişlər. Bu vəziyyət ayələrdə belə xəbər verilir:

**Onlar dedilər: "Biz heç vaxt səni bizə gələn bu aydın dəlillərdən və bizi yaradandan üstün tutmayacağıq. İndi nə hökm verəcəksənsə, ver. Sən ancaq bu dünyada hökm verə bilərsən! Həqiqətən, biz Rəbbimizə iman gətirdik ki, O bizi günahlarımıza və sənin bizi məcbur etdirdiyin sehrə görə bağışlasın. Allahın mükafatı daha xeyirli, cəzası isə daha sürəklidir!" (Taha surəsi, 72-73)**

Göründüyü kimi, möminlər Allaha olan təvəkküllərinə görə, inkarçıların təhdidlərinə qarşı son dərəcə cəsur, son dərəcə etibarlı rəftar göstərirlər. Rəsulların və möminlərin bu xüsusiyyətini xəbər verən ayələrdən bəziləri də bunlardır:

**Onun qövmünün təkəbbürlü zadəganları dedilər: "Ey Şueyb! Ya biz hökmən səni də, səninlə birlikdə iman gətirənləri də yurdumuzdan çıxaracaq, ya da siz bizim dinimizə dönəcəksiniz". Şueyb dedi: "Hətta nifrət etmiş olsaq belə?" Allah bizi sizin dininizdən xilas etdikdən sonra biz yenə də ona qayıtsaq, Allaha qarşı yalan uydurmuş olarıq. Rəbbimiz Allah istəməyincə bizim ona dönməyimiz olacaq bir şey deyildir. Rəbbimiz elmi ilə hər şeyi əhatə etmişdir. Biz Allaha təvəkkül etmişik. Ey Rəbbimiz! Bizimlə qövmümüz arasında ədalətlə hökm ver. Axı Sən hökm verənlərin ən yaxşısısan. (Əraf surəsi, 88-89)**

**Onlara Nuhun əhvalatını oxu. Bir zaman o, öz qövmünə demişdi: “Ey qövmüm! Əgər aranızda qalmağım və Allahın ayələrini xatırlatmağım sizə ağır gəlirsə, mən Allaha təvəkkül edirəm. Allaha qoşduğunuz şəriklərlə birləşib sözü bir yerə qoyun, sonra da işinizi aşkarda görün. Bundan sonra mənə qarşı bacardığınızı edin və mənə möhlət verməyin. (Yunis surəsi, 71)**

Necə ki, Quranda peyğəmbərlərin inkarçılara qarşı son dərəcə qərarlı və etibarlı olmaları əmr edilmişdir. Ayələrdə belə buyurulur:

**"İman gətirməyənlərə de:" Əlinizdən gələni edin, biz də edəcəyik. "(Hud surəsi, 121)**

Rəsulun inkarçılardan qorxub-çəkinməsi əsla mümkün ola bilməz. Çünki rəsullar Quranda xəbər verildiyi kimi, **"... Allahın risalətini təbliğ edir, Ondan qorxur və Allahdan başqa heç kəsdən qorxmurdular."** (Əhzab surəsi, 39)

Rəsulun və möminlərin inkarçılara qarşı bu cür qətiyyətli və cəsur davranmalarının səbəbi, hadisələrin iç üzünü və sirrini qavraya bilmələridir. Bu sirr, heç bir şeyin və heç bir kəsin ona təyin olunan qədərin xaricinə çıxa bilməyəcəyi gerçəyidir. İnkar edənlər şübhəsiz bu metafizik həqiqətdən xəbərsizdirlər və möminlərə dilədiklərini edə biləcəklərini zənn edirlər. Halbuki möminlər bilirlər ki, heç kim Allahın izni xaricində heç bir şey edə bilməz. Hər kəsin qədərini təyin edən, nə qədər yaşayacağını, harada necə öləcəyini təsbit edən Allahdır. Bu səbəbdən inkar edənlərin möminlərə qurduqları tələlər, təşkil etdikləri hücum və böhtanlar, Allahın məlumatı və icazəsi xaricində reallaşa bilməz. Bu səbəblə də, möminlərin bu hücumlardan qorxmalarını, çəkinmələrini tələb edəcək vəziyyət yoxdur. Quranda xəbər verilən; **"Siz doğru yolda olsanız, haqq yoldan azmışlar sizə zərər yetirə bilməzlər."** (Maidə surəsi, 105); **"Allah kafirlərə möminləri məğlub etməyə yol verməyəcəkdir"** (Nisa surəsi, 141) və **"Əgər səbir etsəniz və Allahdan qorxsanız, onların qurduğu hiylə sizi ziyana sala bilməz. Həqiqətən, Allah onların nə etdiklərini əhatə edir."** (Ali İmran surəsi, 120 ) ayələri, bu mövzunu açıqlayır.

Ancaq bu, möminlərin heç bir çətinliklə qarşılaşmayacaqları mənasını verməz. Allah, inkar edənlərin hücumları vasitəsilə möminləri sınayacaq və onları yetkinləşdirəcək. Qurandakı, **"Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər"** (Bəqərə surəsi, 286) hökmü gərəyi, möminlər "qüvvələrinin çatdığı" çətin imtahanlarla sınanarlar. Quran ayəsində bu həqiqət belə açıqlanır:

**Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver. (Bəqərə surəsi, 155)**

Qısacası, rəsul və onunla birlikdə iman gətirənlər üçün, inkar edənlərin bütün təzyiq, böhtan və hücumları, gerçəkdə Allahın imtahanıdır. Bu səbəblə qarşılaşdıqları hadisələrdə son dərəcə qərarlı, etibarlı və səbirli rəftar ortaya qoyar, əsla çaxnaşmaya, ya da qorxuya düşməzlər. Möminlərin bu rəftarı da Quranda belə bildirilir:

**Bəzi adamlar onlara: "Camaat sizə qarşı ordu toplayıbdır, onlardan qorxun!" – dedilər. Bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!" – dedilər (Ali İmran surəsi, 173)**

Ancaq burada bir mövzuya diqqət etməkdə fayda vardır: Rəsulun və möminlərin öndə gələnlərin hücumlarına göstərdikləri səbir, heç bir tədbir almadan durub gözlədikləri mənasını verməz. Tam əksinə rəsulun ən əhəmiyyətli xüsusiyyətlərindən biri də, inkar edənlərin özünə qurduğu tələləri ən ağıllı və ən gözəl şəkildə pozması və qarşılığında inkar edənlərə tələ quraraq onları məğlubiyyətə uğratmasıdır. Çünki Allahın elçiləri son dərəcə ağıllı, uzaqgörən, tədbirli və çox möhkəm planlar hazırlaya bilən çox üstün, elm sahibi insanlardır. İnkar edənlərə qarşı apardıqları mübarizədə də həmişə üstün gəlmişlər. Sonrakı səhifələrdə Quranda xəbər verilən, rəsulların inkarçılara qarşı qurduğu xeyirli və hikmətli planlardan və üsullardan bəhs edəcəyik.

## Rəsulların inkar edənlərlə mübarizə üsulları

Allah rəsulun və möminlərin köməkçisidir. Onları gücləndirir, köməyi ilə dəstəkləyir. Xüsusilə rəsul, Allahın xüsusi dəstəyinə layiq olur. Quranda, bir çox rəsula, Allahın "elm", "hikmət" və "təsiredici izahat", "məqsədəuyğun qərar vermə", "yetkinlik" kimi xüsusi qabiliyyətlər verdiyi bildirilmişdir. Bununla yanaşı Allah rəsullara çox böyük "mülk" (maddi sərvət, güc və ehtişam) da vermişdir.

Məsələn, İsrail oğullarına lider olaraq seçilən hz. Taluta, "bilik" "fiziki güc" və "mülk" verilmişdir. Bəqərə surəsindəki ayə belədir:

**Peyğəmbərləri onlara dedi: "Allah Talutu sizə hökmdar təyin etdi!" Onlar dedilər: "O necə bizə hökmdar ola bilər ki, biz hökmdarlığa ondan daha çox layiqik və ona heç böyük var-dövlət də verilməmişdir". O dedi: "Allah sizin üzərinizə onu hökmdar seçdi, elm və bədəncə onun gücünü artırdı. Allah Öz mülkünü istədiyi kəsə verir. Allah hər şeyi Əhatəedəndir, Biləndir". (Bəqərə surəsi, 247)**

Eyni şəkildə ayələrdə hz. İbrahim (ə.s) və onun soyunun da **"hikmət"** və **"mülk"** ilə dəstəkləndiyi belə xəbər verilmişdir:

**"Yoxsa onlar Allahın Öz lütfündən insanlara verdiyi şeyə görə onlara həsəd aparırlar? Biz İbrahimin nəslinə də Kitab və hikmət bəxş etmiş və onlara böyük bir səltənət vermişdik." (Nisa surəsi, 54)**

Hz. Yusif (ə.s) da bənzər şəkildə dəstəklənmişdir. Quranda, **"yetkinlik çağına çatdıqda"** hz. Yusif (ə.s)-a **"hökm və elm"** (Yusif surəsi, 22) verildiyi bildirilir. Daha sonra hz. Yusif (ə.s)-ın belə dua etdiyi xəbər verilir:

**"Ey Rəbbim! Sən mənə hakimiyyət verdin və mənə yuxuları yozmağı öyrətdin..." (Yusif surəsi, 101)**

Eyni şəkildə hz. Davud (ə.s)-a da **"mülk və hikmət"** (Bəqərə surəsi, 251) verilmişdir. Bir başqa ayədə isə belə buyurulur:

**"Biz onun mülkünü möhkəmləndirdik, özünə də hikmət (peyğəmbərlik) və düzgün qərar çıxartmaq qabiliyyəti bəxş etdik." (Sad surəsi, 20)**

Rəsul, Allahın ona verdiyi bütün bu dəstəklə birlikdə, inkarçıların öndə gələnlərinə qarşı fikri mübarizəyə başlayır. Allahın göstərdiyi yolda, Onun göstərdiyi üsullara görə həyata keçirilən mübarizədir bu.

Necə ki, ağıl və fərasət sahibi rəsullar inkar edənlərə qarşı icra etdikləri fikri mübarizədə həmişə üstün olmuşlar, inkar edənlər heç bir zaman bu güclü və sağlam fikrə qarşı açıqlama gətirə bilməmişlər, həmişə məğlub olmuşlar. Çünki rəsullar haqq ilə gəlmişlər və batilə qarşı daim üstün olmuşlar.

## Rəsulun inkarçıları dəyərsiz görməsi və alçaltması

Rəsulun inkarçıların öndə gələnlərinə qarşı apardığı mübarizə, gerçəkdə Allahın inkarçılara daddırdığı "dünya əzabı" nın bir hissəsidir. Allahın dünyada verdiyi əzabın ən əhəmiyyətli mərhələlərindən biri isə, inkarçıların "dəyərsiz və alçaldılmış" olmasıdır. Bütün

həyatlarını başqa insanlara nümayiş etmək, onlardan təqdir toplamaq üçün davam etdirən inkarçılar üçün bu, son dərəcə böyük əzabdır. Quranda, "dünya əzabı"nın bu "dəyərsiz görülmə və alçaldılma" xüsusiyyəti belə bildirilir:

**Onlardan əvvəlkilər də peyğəmbərləri yalançı saymışdılar və buna görə əzab da onlara gözləmədikləri yerdən gəldi. Allah onlara dünya həyatında rüsvayçılığı daddırdı. Axirət əzabı isə daha böyükdür. Kaş ki, biləydilər! (Zumər surəsi, 25-26)**

Allah, "dəyərsiz görmə və alçaltma" sifətini möminlərin və xüsusilə də rəsulun vəsiləsiylə göstərir. Tövbə surəsində bu mövzu belə bildirilir:

**Onlarla vuruşun ki, Allah sizin əllərinizlə onlara əzab versin, onları rüsvay etsin, sizə onların üzərində qələbə çaldırsın, mömin camaatın qəlbini sevindirsin və möminlərin qəlbindən qəzəbi silib aparsın. Allah istədiyi kəsin tövbəsini qəbul edər. Allah Biləndir, Müdrikdir. (Tövbə surəsi, 14-15)**

"İnkarçıların dəyərsiz görülmə və alçaldılma" vəzifəsini, hz. Süleyman (ə.s) da öz üzərinə götürmüşdür. İsrail oğullarına rəsul olaraq göndərilən hz. Süleyman (ə.s), inkarçı qövmə göndərdiyi mesajında belə deyir:

**"...Biz onların üstünə qarşısında dura bilməyəcəkləri bir ordu ilə gəlib onları oradan zəlil və alçalmış vəziyyətdə çıxardarıq!" (Nəml surəsi, 37)**

Bu səbəbdən "inkarçıların öndə gələnlərinin dəyərsiz görülməsi və alçaldılması" rəsulların mübarizələrinin əhəmiyyətli parçasıdır. Yaxşı, bu necə ediləcəkdir?

Çox zaman, inkarçı öndə gələnlərin əsl üzünün ortaya çıxarılması, "dəyərsiz görülmələri və alçaldılmaları" üçün yetərli olur. Çünki öndə gələnlərin böyük qismi, inkarda və azmaqda ən yüksək mərhələyə çatmış kəslərdir. Son dərəcə degenerasiyalı həyatları vardır. Azğınlıq, saxtakarlıq və bənzər pozulmalar tarix boyunca öndə gələnlərin böyük qisminin başlıca xüsusiyyətlərindən biri olmuşdur. Buna qarşı bəhs edilən kəslər bu degenerasiya quruluşlarını cəmiyyətdən gizlədərlər. Bunların ortaya çıxarılması, öndə gələnlərin "dəyərsiz görülməsi və alçaldılması" yollarından biridir.

İman edənlər, inkarçıların öndə gələnləri üçün böyük qorxu mənbəyidir. Rəsulun və möminlərin gücü, ağılı, qətiyyəti, inkarçıların ürəyinə qorxu salar. Quranda, bu vəziyyət belə ifadə edilir:

**Doğrusu, onlar ürəklərində Allahdan çox sizdən qorxurlar. Çünki onlar anlamayan adamlardır. (Həşr surəsi, 13)**

Allah başqa bir ayədə də, inkarçıların qorxu içində olacaqlarını belə bildirmişdir:

**"Haqqında heç bir dəlil nazil etmədiyi şeyi Allaha şərik qoşduqlarına görə, kafirlərin qəlblərinə qorxu salacağıq. Onların sığınacaqları yer Oddur. Zalımların məskunlaşacağı yer necə də pisdir!." (Ali İmran surəsi, 151)**

Quranda xəbər verilən bütün rəsullar inkarçılara qarşı apardıqları fikri mübarizədə daim üstün gəlmişlər. Rəsulların təbliğini dinləməyən, xəbərdarlıqlarını nəzərə almayan hər qövm sonunda həlak edilmiş, Allahın elçilərinə qarşı planladıqları hər pislik boşa çıxmışdır.

## Rəsulun inkar edənlərin tələlərini pozması

Qurandakı bir çox ayədə inkar edənlərin tələlərinin boşa çıxdığı bildirilir və daha da əhəmiyyətlisi, inkar edənlərin tələsinə qarşılıq, Allahın inkar edənlərə tələ ( "nizam") qurduğu da xəbər verilir.

Ali İmran surəsinin 54-cü ayəsində, **"Onlar hiylə qurdular, Allah da hiylə qurdu. Allah hiylə quranların ən yaxşısıdır."** şəklində buyurulur. Ənfal surəsində isə, inkar edənlərin rəsula qurduqları tələyə qarşılıq, Allahın da inkar edənlərə tələ qurduğu belə bildirilir:

**Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya yurdundan qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır. (Ənfal surəsi, 30)**

Onsuz da Allahın adlarından biri də, "Makir", yəni "tələ quran"dır. Başqa ayələrdə də Allahın bu sifəti belə bildirilir:

**Zalımlar öz hiylələrini qururdular. Halbuki onların hiyləsi Allaha bəlli idi. Onların hiyləsi ilə dağlar yerindən tərpədən deyildir. (İbrahim surəsi, 46)**

**Onlar hiylə qurdular, Biz də hiylə qurduq. Lakin onlar bunu hiss etmədilər. (Nəml surəsi, 50)**

Burada əhəmiyyətli bir xüsus vardır: Allahın bu "nizam qurma" sifəti də, az əvvəl toxunduğumuz "dəyərsiz görmə və alçaltma" sifəti kimi, möminlərdə və xüsusilə də rəsulda təcəlli edər. Allah, çox zaman küfrün tələlərinə qarşılıq rəsulun vəsiləsiylə tələ qurar.

Quranda bu mövzu ilə əlaqədar verilən nümunələrdən biri də Yusif peyğəmbərin həyatıdır. Hz. Yusif (ə.s)-ın inkarçı xarakterli qardaşları özünə qarşı **"hiyləli-nizam"** (Yusuf surəsi, 102) quraraq kiçik yaşdaykən Yusif peyğəmbəri quyuya atıblar. Ancaq hz. Yusif (ə.s) Allahın diləməsi ilə bu tələdən xilas olmuş və onların bu tələsinə qarşılıq, Misirin xəzinələrinin başına keçdiyində onlara tələ qurmuşdur. Ayələrdə bu hadisələr belə xəbər verilir:

**Yusif onları azuqə ilə təmin edərkən qardaşının yükünün içinə bir piyalə qoydu. Sonra bir carçı qışqırıb dedi: "Ey karvan əhli! Siz oğrusunuz!" Qardaşlar onlara tərəf dönüb: "Nə itirmisiniz?" - dedilər. Onlar dedilər: "Padşahın piyaləsini itirmişik. Onu gətirənə bir dəvə yükü ərzaq veriləcək". Carçı: "Mən buna zaminəm!" - dedi. Onlar dedilər: "Allaha and olsun! Siz bilirsiniz ki, biz bu yerlərə fitnə-fəsad törətmək üçün gəlməmişik və biz oğru da deyilik ". Onlar dedilər: "Əgər yalançısınızsa, onda onun cəzası nədir?" Qardaşlar dedilər: "Onun cəzası - itmiş piyalə yükündə tapılan kimsənin özünün kölə edilərək cəzalandırılmasıdır. Biz zalımları belə cəzalandırırıq". O, qardaşının yükündən əvvəl onların yüklərini axtarmağa başladı, sonra da piyaləni qardaşının yükündən çıxartdı. Biz Yusifə belə bir tədbir öyrətdik. Allahın istəyi olmasaydı, padşahın qanunlarına görə, o, qardaşını tutub öz yanında saxlaya bilməzdi. Biz istədiyimiz kəsi dərəcə-dərəcə yüksəldirik. Hər bilik sahibindən də üstün bir bilən vardır.  (Yusif surəsi, 70-76)**

Quranda bildirilən bir başqa tələ nümunəsi də hz. İbrahim (ə.s)-ın qövmünün ibadət etdiyi bütləri qırmasıdır. Bu hadisəni xəbər verən ayələr belədir:

**"Biz daha öncə İbrahimə də özünə layiq doğru bir yol bəxş etmişdik. Biz onu tanıyırdıq. Bir zaman o öz atasına və tayfasına: "Bu nə heykəllərdir ki, siz onlara sitayiş**

**edirsiniz?" – demişdi. Onlar: "Biz atalarımızı onlara ibadət edən görmüşük!" – demişdilər. İbrahim demişdi: "Doğrusu, siz də, atalarınız da, açıq-aydın bir azğınlıq içindəsiniz". Onlar: "Sən bizə haqq gətirmisən, yoxsa oyunbazlardansan?" – demişdilər. İbrahim demişdi: "Xeyr, sizin Rəbbiniz, yaratdığı göylərin də, yerin də Rəbbidir. Mən də buna şahidlik edənlərdənəm. Allaha and olsun ki, siz geriyə dönüb getdikdən sonra bütlərinizə bir kələk gələcəyəm!" Nəhayət İbrahim bütləri sındırıb qırıq-qırıq edərək yalnız onların ən irisini saxladı ki, bəlkə, ona müraciət edələr. Onlar dedilər: "Məbudlarımızı kim bu kökə salıb? Şübhəsiz ki, o, zalımlardandır!" Bəziləri: "İbrahim deyilən bir gəncin onları pislədiyini eşitmişik" – dedilər. Digərləri də: "Onu camaatın gözü qabağına gətirin ki, şahidlik etsinlər" – dedilər. Onlar dedilər: "Məbudlarımızı sənmi bu kökə saldın, ey İbrahim?" İbrahim dedi: "Xeyr, bunu onların bu böyüyü etmiş olar. Əgər danışa bilirlərsə, özlərindən soruşun". Onlar öz-özlərinə müraciətlə: "Həqiqətən də, siz zalımlarsınız" – dedilər. Sonra yenə öz bildikləri batil əqidələrinə qayıdıb dedilər: "Axı sən bilirsən ki, bunlar danışmırlar". İbrahim dedi: "Elə isə Allahı qoyub sizə heç bir fayda və zərər verə bilməyən bütlərəmi tapınırsınız? Tfu sizə də, Allahdan başqa tapındıqlarınıza da! Doğurdandamı, siz dərk etmirsiniz?" (Ənbiya surəsi, 51-67)**

## Rəsul və "Atalar dini" nümayəndələrinin mübarizəsi

İndiyə qədər həmişə rəsul ilə qövmün öndə gələn inkarçıları arasındakı mübarizəyə toxunduq. Halbuki rəsula və onunla birlikdə iman gətirənlərə düşmənçilik edənlər yalnız qövmün öndə gələn inkarçıları deyil. Başqa qruplar da bənzər, ya da fərqli səbəblərdən ötrü rəsula qarşı hərəkətə keçərlər. Həmçinin "öndə gələnləri" da tək bütün olaraq düşünmək doğru olmaz; bu təbəqənin içində də fərqli xüsusiyyətləri olan qruplar vardır. Sonrakı səhifələrdə Quranda təsvir edilən bu qrupları araşdıracağıq.

Bu qrupların ən əhəmiyyətlilərindən biri, rəsulun gətirdiyi haqq dinə qarşı, içində bir çox azğın maddənin mövcud olduğu "atalarının batil dini"ni müdafiə edən qrupdur.

Əvvəlki səhifələrdə cahil cəmiyyətlərdən bəhs edərkən, bu cəmiyyətin din əxlaqının özündən uzaqlaşdığını və Allahın açıq-aşkar olan varlığını gözardı etdiyini söyləmişdik. Quranda izah edilən cahil cəmiyyətlərin demək olar ki, hamısının bəzi dini inancları vardır. Bu cahillik dinləri bəzən haqq dinə şəkil cəhətdən bənzəyə bilər. Ancaq bu "din"lərin əsası, haqq dinin özündən çox fərqlidir. Haqq din, Allahı bilib-tanımaq və yalnız Ona qulluq etmək, Ondan başqa heç bir şeyə bağlanmamaq, Allahın rəsulunun izindən getmək üzərinə quruludur. Halbuki cahil cəmiyyətindəki din anlayışı, daha çox atalara olan mənasız bağlılıq və onlardan qalma batil ənənələri davam etdirmə istəyi

üstünə qurulmuşdur. Bəlkə cahil dində Allahın adı sıx istifadə edilər, ancaq bu yalandır; bu dində gerçək iman və Allah qorxusu yoxdur. Quranda, bu vəziyyət belə açıqlanır:

**De: "Əgər bilirsinizsə, deyin görüm yer və onun üstündə olanlar kimindir?" Onlar: "Allahındır!" – deyəcəklər. De: "Bəs düşünüb ibrət almayacaqsınız?" De: "Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?" Onlar: "Allahdır!" – deyəcəklər. De: "Bəs qorxmursunuz?" De: "Əgər bilirsinizsə, deyin görüm hər şeyin hökmü əlində olan, himayə edən, Özünün isə himayəyə ehtiyacı olmayan kimdir?" Onlar: "Allahdır!" – deyəcəklər. De: "Bəs necə olur ki, aldanırsınız?" Xeyr, Biz onlara haqqı gətirdik. Onlar isə yalançıdırlar! (Muminun surəsi, 84-90)**

Ayələrdə təsvir edilən şəxslərin vəziyyəti son dərəcə ibrət vericidir: Bu kəslər onlardan soruşulan bütün suallara doğru cavab verir (yəni Allahın hər şeyin Yaradıcısı olduğunu təsdiq edir)lər. Ancaq davranışları bu sözlərinə uyğun deyil. Bu səbəblə onlara, "düşünmürsünüz?" "qorxmursunuz?" "necə olur ki, aldanırsınız?" kimi suallar soruşulur, xatırladılır və içində olduqları vəziyyətdən xilas olmaları üçün onlara xəbərdarlıq edilir. Bunun səbəbi isə, suallara cavab verən kəslərin əslində verdikləri cavabların mənasını qavramamalarıdır.

Bəs görəsən bu qəribə vəziyyətin səbəbi nədir?

Səbəb çox açıqdır: Haqqında bəhs etdiyimiz kəslər haqq dinin deyil, cahil dinin üzvləridir. Bu batil dinin xüsusiyyəti isə, Allaha səmimi iman edən, Allah qorxusu, Allahın razılığının hər şeydən üstün tutulması üzərinə qurulan inanc olmamasıdır. Bu dinin təməlində, atalardan gələn bəzi batil inanc və dəyərlərin ənənə formasında qorunması durar. Yuxarıdakı ayələrdə təsvir edilən kəslər, atalar dinində mövcud olan Allah inancını daşıyan, lakin həqiqətdə Allahın varlığını və xüsusiyyətlərini qətiyyən qavramamış olan kəslərdir.

Bu arada, ataların dinində bir çox azğın maddələr də var. Bu batil din, haqq dinin tək qaynağı olan vəhydən tamamilə qopmuş və bəzi xurafatları özünə qaynaq etmişdir. Bu səbəblə Allah inancından, əxlaq anlayışına qədər bir çox mövzuda batil hökmləri vardır. Və bundan ötrü də, rəsul və onunla birlikdə iman gətirənlər ataların batil dininə qarşı çıxar və cəmiyyəti həqiqi dinə, Allahın insanlar üçün "seçib-bəyəndiyi" haqq dinə dəvət edərlər. Ancaq çox zaman insanlar atalarının dininə bağlı qalmaqda təkid edərlər. Onların bu vəziyyətləri ayədə belə xəbər verilmişdir:

**Onlara: "Allahın nazil etdiyinə və göndərdiyi Elçiyə tərəf gəlin" – deyildikdə: "Atalarımızın tutduğu yol bizə bəsdir" – deyirlər. Əgər ataları bir şey bilməyib, doğru yola yönəlməyiblərsə onda necə olsun? (Maidə surəsi, 104)**

Öndə gələnlər arasında da ataların batil dininə bağlı qalma meyli geniş yayılmışdır. Quranda bunun dəyişməz bir qayda olduğu belə xəbər verilmişdir:

**Biz səndən əvvəl hansı bir şəhərə xəbərdarlıq edən bir peyğəmbər göndərdiksə, onun cah-calal içində yaşayan sakinləri: "Biz atalarımızı bu yolda gördük və biz də onların yolunu tutub gedəcəyik!" - dedilər. Peyğəmbər dedi: "Əgər sizə atalarınızın tutduğu o yoldan daha doğrusunu göstərsəm necə?" Onlar dedilər: "Biz sizinlə göndərilənləri inkar edirik". (Zuxruf surəsi, 23-24)**

Yaxşı. nədir öndə gələnlərin və daha başqalarının ataların batil dininə bu qədər bağlanmalarının səbəbi? Öndə gələnlərin ataların batil dininə bağlı olmalarının səbəbi aydındır: Bu saxta din, öz hakimiyyətləri altında olan nizamın əhəmiyyətli parçasıdır. Bu batil dindən istifadə edərək nizama saxta qanunilik təmin etmək istəyirlər. Həmçinin bu saxta dinin bəzi qaydalarına əməl edərək lazım olduğunda özlərini dindar insanlar olaraq tanıtmaları və cəmiyyətin etibarını qazanmaları son dərəcə asan olur.

Bəzi insanlar da ataların dininə içində olduqları fanatizm səbəbiylə bağlı qalarlar. Hər cür dəyişikliyə qarşı çıxan, köhnə olan hər şeyin yaxşı olduğuna inanan bu kəslər, insan nəfsinin meyillərindən biri olan fanatizmin (mühafizəkarlığın) içində qalıb boğulmuşlar.

Bəzi təbəqələr isə bəhs etdiyimiz ataların batil dini sayəsində maddi qazanclar təmin edirlər və bu batil dinin tərk edilməsinin də öz qurduqları ruhanilər sistemini yox edəcəyini bilirlər. Quranda, **"Ey iman gətirənlər! Baş keşişlərdən və rahiblərdən çoxu insanların mallarını haqsız olaraq yeyir və onları Allah yolundan döndərirlər. Qızıl-gümüş yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ."** (Tövbə surəsi, 34) ayəsində ifadə edildiyi üzrə, saxta dindarlıq görünüşüylə "insanların mallarını haqsızlıqla yeyən" ruhanilərin sayı bir xeyli qabarıqdır.

Bu səbəblə cəmiyyətin əhəmiyyətli təbəqəsi, rəsulun təklif etdiyi haqq dinə qarşı atalarının dininin müdafiə etməyə başlayar. Hz. Hud (ə.s)-a **"...Yanımıza gəlmisən ki, atalarımızın ibadət etdiklərini buraxıb tək Allaha ibadət edək? Əgər doğru danışanlardansansa, bizə vəd etdiyin əzabı gətir"** (Əraf surəsi, 70) deyən Ad qövmü; ya da hz. Saleh (ə.s)-a, **"..."Ey Saleh! Sən bundan əvvəl içərimizdə ümid edilən bir kimsə idin. Doğrudanmı atalarımızın ibadət etdiyinə ibadət etməyi bizə qadağan edirsən? Doğrusu, biz sənin bizləri dəvət etdiyin əqidə barəsində şübhə doğuran şəkk içindəyik""** (Hud surəsi, 62) deyən Səmud qövmü; ya da hz. Musa (ə.s)-a qarşı qarşı "..Bu ancaq uydurulmuş bir sehrdir. Biz ulu babalarımızdan belə bir şey eşitməmişik..." (Qəsas surəsi, 36) deyən Firon kütləsi, həmişə bu üslubu izləmişlər.

Bu təbəqənin ən böyük xüsusiyyətlərindən biri də, rəsula və onunla birlikdə iman edənlərə qarşı hücuma keçərkən, özlərini gerçək dindar kimi göstərməyə çalışmalarıdır. Bu kəslər Allah və din adına ortaya çıxarlar. Bu şəkildə hücum və təzyiqlərinə saxta qanuni zəmin meydana gətirməyə çalışarlar. Bu son dərəcə saxta davranışdır və bəhsi keçən kəslərin də əslində Allahla və Onun seçib bəyəndiyi din ilə heç bir əlaqələri yoxdur. Ancaq Quranda xəbər verilən bu kəslər, rəftarlarını elə bir dərəcəyə çatdırmışlar ki, "rəsulu şəhid etmək" kimi ola biləcək ən böyük günahı işləyərkən belə "Allah adına" hərəkət etdiklərini irəli sürmüşlər. Bu kəslərlə əlaqədar olaraq Quranda belə xəbər verilir:

**"Biz Səmud tayfasına - Allaha ibadət edin deyə, qardaşları Salehi elçi göndərdik..." (Nəml surəsi, 45)**

**Onlar dedilər: "Biz sənin və səninlə birlikdə olanların ucbatından uğursuzluğa uğradıq". Saleh dedi: "Sizin uğursuzluğunuz Allah yanındadır. Siz sınağa çəkilən bir qövmsünüz". Şəhərdə doqquz adam var idi ki, bunlar yer üzündə fitnə-fəsad törədir, yaxşı işlər görmürdülər. Onlar dedilər: "Bir-birinizin yanında Allaha and için ki, gecə ona və ailəsinə basqın edib öldürəcək, sonra da onun yaxın qohumuna deyəcəyik ki, biz onun ailəsinin öldürüldüyünü görməmişik və biz, həqiqətən, düzünü deyirik". Onlar hiylə qurdular, Biz də hiylə qurduq. Lakin onlar bunu hiss etmədilər. Bax gör onların hiylələrinin aqibəti necə oldu. Biz onları bütün tayfalarıyla birlikdə yerlə-yeksan etdik. (Nəml surəsi, 47-51)**

Allah adına ortaya çıxaraq Allaha və Onun Rəsuluna müharibə açanlar arasında çox əhəmiyyətli bir qrup daha vardır. Dərhal hər Rəsulun qarşılaşdığı bu qrupa, Quranda "münafiq" adı verilir.

## Rəsulların münafiqlərlə mübarizəsi

Əvvəlki səhifələrdə davamlı olaraq rəsul və möminlər ilə inkar edənlər arasında keçən mübarizəni mövzu etdik. Ayələrdə xəbər verildiyi üzrə, inkarçıların ortaq xüsusiyyəti, rəsula qarşı olduqlarını, onun gətirdiyi haqq dini inkar etdiklərini açıq-aydın söyləmələri və onlara qarşı da açıq mübarizəyə girmələridir.

Halbuki rəsul və möminlərə qarşı hərəkətə başlayan inkarçılar, təkcə bəhs edilən "açıq inkarçı"larla məhdud deyil. Bir də möminlərin tərəfində görünən, rəsula itaət etdiyini iddia edən "gizli inkarçılar" vardır ki, rəsul və möminlər bunlara qarşı da mübarizə aparарlar. Quranda, "münafiq" olaraq bilinən bu ikiüzlü kəslər belə təsvir edilir:

**İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: “Allaha və Axirət gününə inanırıq” – deyirlər. Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadır və bunu anlamırlar. Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də ağrılı-acılı bir əzab çəkəcəklər (Bəqərə surəsi, 8-10)**

Münafiqlərin iman gətirmədikləri halda inanmış kimi görünmələrinin səbəbi, özlərini möminmiş kimi göstərərək möminlərdən bəzi mənfəətlər əldə edəcəklərini ummalarıdır. Möminlərin maddi imkanları, güc və ehtişamları bu kəslərə təsir edər və bunlardan faydalana bilmək üçün özlərini mömin kimi göstərməyə qərar verərlər.

Halbuki ayədə də bildirildiyi kimi, münafiqlər yalnız özlərini aldadırlar, çünki "mömin təqlidi etmək" əslində mümkün deyil. Edə bildikləri dinin yalnız bəzi şəkli xüsusiyyətlərini təqlid etməkdən başqa bir şey deyil. Halbuki möminlərin "təqlid edilə bilməz" xüsusiyyətləri vardır. Bundan xəbərdar olan möminlər və xüsusilə də rəsul münafiqlərin ikiüzlülüyünü dərhal fərq edərlər. Allah, rəsula münafiqləri tanımaq üçün xüsusi anlayış verdiyini ayələrində belə xəbər vermişdir:

**Yoxsa qəlblərində xəstəlik olanlar elə hesab edirdilər ki, Allah onların kin-küdurətini üzə çıxarmayacaq? Əgər Biz istəsəydik, onları sənə göstərərdik, sən də onları üzlərindəki əlamətlərdən tanıyardın. Sən onları danışıq tərzlərindən mütləq tanıyacaqsan. Allah sizin əməllərinizi bilir. (Məhəmməd surəsi, 29-30)**

Rəsullar münafiqlərin vəziyyətini dərhal açıqlamaya bilərlər. Belə ki, bu kəslərin ikiüzlülüyü qısa müddət içində məsələn, din üçün fədakarlıq etmələri lazım olduğu zaman ortaya çıxacaq. Çünki münafiqlər şəxsi mənfəətlərini təmin etmək ümidi ilə möminlərə və dinə yaxınlaşmışlar. Ancaq hər hansı bir mənafelərinin ola bilməyəcəyini, hətta tam tərsinə Allah yolunda fədakarlıq etməli olduqlarını anladıqda anidən gerçək üzlərini ortaya çıxararlar.

Məhz münafiqin ən əhəmiyyətli xüsusiyyəti bu mərhələdə ortaya çıxar: Münafiq "mömin təqlidi" etməkdən imtina etdiyi bu anda, tək başına möminlərdən ayrılıb küncünə çəkilməz. Tam əksinə möminləri eynilə özü kimi Allah yolundan döndərməyə çalışar. Öz ağlısızlığı ilə onların şövqlərini qıracaq, onları şübhəyə və ümidsizliyə salacaq, rəsula olan sədaqətlərini zəiflədəcək təlqinlərlə ortaya çıxar. Fitnə çıxarmağa cürət edər. Çünki, möminlərdən ayrılarkən, "onlar doğru yolda idi, mən isə ikiüzlü bir saxtakar idim; maraqlarıma xələl gəldikdə ayrılıb-getdim" deyə bilməz.

Quranda xəbər verilən münafiqlərin, **"...Allah və Onun Elçisi bizə ancaq yalan vədə vermişdir..."** (Əhzab surəsi, 12), ya da **"...Bunları öz dinləri aldatdı!..."** (Ənfal surəsi, 49) kimi ifadələri, bəhs edilən rəftarlarını təsvir edir. Möminlərin fərq etmədiyi həqiqətləri özlərinin fərq etdiyi yanılması isə, hz. Musa (ə.s)-ın qövmünü azdırıb buzova sitayiş edən Samirinin söylədiyi, **"...Mən onların görmədiklərini gördüm..."** (Taha surəsi, 96) sözündə ən açıq şəkildə görünür.

Münafiqin etdiyi bu fitnə-fəsad hərəkatının adı, Quranda "fitnə" olaraq təyin olunur. Və fitnə Qurandakı, **"... Fitnə, qətldən betərdir..."** (Bəqərə surəsi, 217) hökmünə görə, ən böyük günahdır.

Az əvvəl bəhs etdiyimiz Samiri, münafiq xarakterinin çox diqqətə çarpan nümunəsidir. Hz. Musa (ə.s)-ın ona qarşı rəftarı da rəsulların qətiyyətini göstərir. Quranda, Samirinin fitnəsi və hz. Musa (ə.s)-ın rəftarı ətraflı olaraq izah edilir. Buna görə, hz. Musa (ə.s)-ın Allahdan vəhy almaq üçün tək başına Tur dağına çıxdığı əsnada Samiri qövmü içində fitnə çıxarmışdır. Bu hadisə ayələrdə belə xəbər verilmişdir:

**Allah buyurdu: "Səni öz qövmündən ayrılmağa tələsdirən nə idi, ey Musa?" Musa dedi: "Onlar da arxamca gəlirlər. Məndən razı qalasan deyə, Sənin yanına tələsdim, ey Rəbbim!" Allah buyurdu: "Səndən sonra qövmünü sınağa çəkdik. Samiri onları yoldan çıxartdı". Musa qəzəbli, kədərli halda qövmünün yanına qayıdıb dedi: "Ey qövmüm! Məgər Rəbbiniz sizə gözəl bir vəd verməmişdimi? Doğrudanmı bu vaxt sizə uzun gəldi? Yoxsa Rəbbinizdən sizə bir qəzəb gəlməsini istəyib mənə verdiyiniz vədə xilaf çıxdınız?" Onlar dedilər: "Biz sənə verdiyimiz vədə öz ixtiyarımızla xilaf çıxmadıq. Lakin biz o xalqın zinət əşyasından olan ağır yüklərlə yüklənmişdik. Biz onları oda atdıq. Həmçinin Samiri də onu oda atdı". Samiri onlar üçün böyürən bir buzov heykəli düzəltdi. Buzova məftun olanlar: "Sizin də məbudunuz, Musanın da məbudu budur. Lakin o bunu unutmuşdur" – dedilər. Məgər bu heykəlin onlara heç bir cavab vermədiyini, onlara nə bir zərər, nə də bir fayda verməyə qadir olmadığını görmürdülərmi?! Bundan əvvəl Harun onlara demişdi: "Ey qövmüm! Siz bununla ancaq sınağa çəkildiniz. Həqiqətən, sizin Rəbbiniz Mərhəmətli Allahdır. Mənə tabe olun və əmrimə itaət edin!" Onlar: "Musa yanımıza qayıtmayınca biz ona sitayiş etməkdən əl çəkməyəcəyik!" – dedilər. (Taha surəsi, 83-91)**

**Musa dedi: "Məqsədin nə idi, ey Samiri?" O dedi: "Mən onların görmədiklərini gördüm. Mən o elçinin ləpirindən (Cəbrayılın atının ayağı dəydiyi yerdən) bir ovuc torpaq götürdüm və onu bəzək əşyalarının üstünə atdım. Nəfsim məni buna sövq etdi". Musa dedi: "Çıx get! Sən həyatın boyu: "Mənə toxunmayın, mən də sizə toxunmayım!" – deməli olacaqsan. Səni həm də qurtula bilməyəcəyin əzab günü gözləyir. Sən sitayiş etdiyin məbuduna bax. Biz onu yandıracaq, sonra da dənizə sovuracağıq. Sizin məbudunuz**

**yalnız Özündən başqa heç bir məbud olmayan Allahdır. O, elm ilə hər şeyi əhatə edir" (Taha surəsi, 95-98)**

Göründüyü kimi, rəsulların münafiqlərə qarşı rəftarları son dərəcə qətiyyətlidir. Necə ki, Allah peyğəmbərimiz (s.ə.v) -ə belə əmr edir:

**"Ey Peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı vuruş! Onlarla sərt davran! Onların sığınacağı yer Cəhənnəmdir. Ora necə də pis dönüş yeridir!" (Ət-Təhrim surəsi, 9)**

Burada unudulmamalı olan əhəmiyyətli xüsus vardır. Hz. Musa (.ə.s)-ın qövmünün bir qismi son dərəcə anlayışsız və itaətsizxarakter göstərmişdir. Ancaq gerçək möminlər münafiqlərin fitnəsindən təsirlənməz və rəsula olan sədaqətlərini daha da artıraraq davam etdirərlər. Bu vəziyyətdə münafiqlər toplu olaraq möminlərdən ayrılırlar. Ancaq içlərindəki "intiqam" istəyi səbəbiylə dağılmazlar, rəsul və onu müşayiət edən möminlərə düşmənliyi davam etdirmək üçün səy göstərərlər. Və maraqlıdır, bu vəziyyətdə belə ikiüzlü olduqlarını qəbul etməz, özlərini gerçək mömin kimi tanıdarlar. Bunun ən açıq nümunəsinə Peyğəmbərimiz (s.ə.v) dövründə şahid ola bilərik. Hz. Məhəmməd (s.ə.v)-ə qarşı fitnə çıxaran münafiqlər, onun yanından ayrıldıqdan sonra yeni məscid qurmuş, yəni müsəlman olaraq görünməyə davam etmişlər. Halbuki bu qurduqları məscidin tək məqsədi, rəsula və möminlərə qarşı düşmənçilik edə bilməkdir. Quranda, bu kəslərin vəziyyəti belə təsvir edilir:

**Müsəlmanlara zərər vurmaq, küfr etmək, möminlərin arasına təfriqə salmaq məqsədilə, əvvəlcədən Allaha və Onun Elçisinə qarşı müharibə edən kimsəni gözləmək üçün məscid tikənlər, əlbəttə: "Biz yaxşılıqdan başqa bir şey istəmədik" - deyə and içəcəklər. Allah şahiddir ki, onlar yalançıdırlar.**

**Heç vaxt orada namaz qılma. İlk gündən təqva üzərində qurulmuş məscid, əlbəttə, içində namaz qılmağın üçün daha layiqdir. Orada təmizlənməyi sevən kişilər vardır. Allah da təmizlənənləri sevir.**

**Binasını Allah qorxusu və Onun rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə Cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz.**

**Onların ürəkləri parça-parça olana qədər tikdiyi bina qəlblərində bir şübhə olaraq qalacaqdır. Allah Biləndir, Müdrikdir.(Tövbə surəsi, 107-110)**

Ayələrdə də xəbər verildiyi kimi, münafiqlərin qurduğu məscidin məqsədi, möminlərə zərər vermək və möminlərə qarşı döyüşənlərlə əməkdaşlıq etməkdir. Hər nə qədər bu məscidi quran münafiqlər, "biz yaxşılıqdan başqa bir şey istəmədik" desələr də gerçək məqsədləri budur. İki məscidi ayıran ən əhəmiyyətli fərq isə, mömünlərininkinin "təqva", yəni Allah qorxusu və Allah rizası üzərində qurulmuş olmasıdır. Nəfs və möminlərə düşmənçilik üzərinə qurulan münafiqlərin məscidi isə, ayədəki ifadəylə, cəhənnəmə diyirlənəcək bölgənin kənarındadır. Münafiqlər axirətdə cəhənnəmin ən alt təbəqəsinə göndəriləcəklər.

# HZ. MEHDİ (Ə.S) DÖVRÜNÜN MÜNAFİQLƏRİ TARİXİN ƏN AZĞIN MÜNAFİQLƏRİ OLACAQ

Peyğəmbərimiz (s.ə.v)-in hz. Mehdi (ə.s) camaatı haqqında bildirdiyi əhəmiyyətli məlumatlardan biri, bu müqəddəs camaat içindən çıxacaq olan münafiqlərin xüsusiyyətləridir. Hədislərdə xəbər verildiyi üzrə bu kəslər, dünya tarixinin ən azğın münafiqləri olacaq və var gücləriylə (öz ağıllarına görə) hz. Mehdi (ə.s) və camaatı əleyhinə mübarizə aparacaqlar. Ancaq tarix boyunca olduğu kimi Axırzamanda da Rəbbimizin qanunu bir daha təcəlli edəcək və bu hiyləgər kəslər hz. Mehdi (ə.s)-ın böyük elmi mübarizəsinə heç bir şəkildə zərər verə bilməyəcəklər. Allah vədini yerinə yetirəcək, kafirlər və münafiqlər istəməsə də nurunu tamamlayaraq İslam əxlaqını yer üzünə hakim edəcək. Hz. Mehdi (ə.s) dövründəki münafiqlərlə əlaqədar olaraq bir hədisdə belə bildirilmişdir:

Hz. Mehdi (ə.s)-ın camaatı "təmiz və bərəkətli buğdaya" bənzəyəcək. Aralarından çıxan münafiqlər də, "bu buğdaya müsəllət olan parazit, iyrənc buğda qurdları" kimi olacaqlar.

Esbağ ibn Nebate deyir ki: Əmirəlmöminin Əli əleyhissalam belə buyurdu: *"...Elə ki, sizdən yalnız gözdəki sürmə qədər və ya yeməkdəki duz qədər qalacaq. Və mən sizə bir nümunə verəcəyəm: Adamın birinin bir az buğdası vardır. Onu təmizləyir və evə qoyar, uzun müddət sonra geri qayıtdığında ona qurd düşdüyünü görər, onu təkrar ayırar və təmizləyər sonra təkrar evinə qoyar. Uzun müddət sonra qayıtdığında ona təkrar qurd düşdüyünü görər. Təkrar onu ayırar və təmizləyər və həmişə eyni işi təkrarlayar.* ***NƏHAYƏT QURDLARIN HEÇ ZƏRƏR VERƏ BİLMƏDİYİ ÇOX AZ SAĞLAM BUĞDA QALAR. Məhz siz də beləsiniz. NƏHAYƏT İÇİNİZDƏ FİTNƏLƏRİN ƏSLA ZƏRƏR VERƏ BİLMƏDİYİ ÇOX AZ BİR QRUP QALACAQDIR.***" (Eyni hədisi Əhməd ibn Məhəmməd ibn Səid də nəql edər.) (Şeyh Muhammed b.İbrahim-i Numani, Gaybet-i Numani, s. 246)

Hədisdə hz. Mehdi (ə.s) camaatından çıxan münafiqlərin, "buğdaya müsəllət olan iyrənc qurdlar" kimi olduqları xəbər verilmişdir. Hz. Mehdi (ə.s) camaatı, "buğda kimi, sonra açılıb sərpiləcək, inkişaf edib böyüyəcək, bərəkət gətirəcək, gələcək vəd edən nemətə" bənzədilmişdir. Münafiqlərin də, "buğdanı içdən məhv etməyə çalışan, qurd kimi iyrənc və xəbis varlıqlar olduqları" xəbər verilmişdir. Hədisdə, sahibinin buğdanı təmizləyəcəyi, amma buğdaya yenə qurd düşəcəyi; sahibi hər dəfə bu əməliyyatı təkrarladıqdan sonra, ən nəhayətində buğdada heç qurd qalmayacağı izah edilmişdir. Bu məlumatlara görə, buğdadakı iyrənc və parazit qurdların ayırd edilməsi buğdanın pislikdən təmizlənməsi kimi; hz. Mehdi (ə.s) camaatı da bir müddət sonra münafiqlərdən təmizlənib sonunda tərtəmiz birliklə vəzifəsini icra edəcək.

**"Mehdi camaatı eyni zamanda münafiq fabriki kimidir. Ən azğın münafiqlər də oradan çıxar, ən vəli kəslər də oradan çıxar."**

**ADNAN OKTAR:** ... Mehdi (ə.s) camaatı eyni zamanda münafiq fabriki kimidir, ən azğın münafiqlər oradan çıxar, ən böyük vəlilər də oradan çıxar, inşaAllah. Heç anlamazsan vəli olduğunu, anlaya bilməzsən. Peyğəmbərimiz (s.ə.v) zamanında da elə idi. Münafiqin meydana gəlməsi üçün Haqq camaata ehtiyac vardır, yəni hər hansı bir qrup içərisindən münafiq çıxmaz. Naməlumdur o münafiqlər, yəni ciddi münafiq hərəkəti olmaz. Çünki ciddi hərəkət olacaq ki, içindəki münafiq də diqqətə alınacaq münafiq olsun. Yəni, fərz edək məhəllə məscidindən bir münafiq çıxdığını düşünək. Nə edər ən çox məsciddə? "Bu məscid yıxılar hər halda" deyəcək və ya "məscidə nə ehtiyac var" deyəcək. Yəni bu xalqa çox təsir etməz. Amma Mehdi (ə.s) camaatının münafiqləri çox azğın olar. Camaatın gücü və təsiri ilə mütənasib olar münafiqlərin azğınlığı. Məsələn, Peyğəmbərimiz (s.ə.v) zamanındakı münafiqlər çox azğın idilər. Ən azğın münafiqlər onlardır ... *(10 sentyabr 2010, Kocaeli TV reportajından)*

## Rəsulun əxlaqsızlıqla mübarizəsi

Rəsulun əsl vəzifəsi insanları Allahın yoluna dəvət etmək, Allahın dinini onlara açıqlamaqdır. Mübarizə apardığı qruplar isə, rəsulun çağırışına düşmənliklə cavab verən, onu dayandırmağa çalışan qruplardır. Rəsulun mübarizəsindəki digər məqsəd isə, insanları Allahın yolundan saxlayan, onları azğınlığa təşviq edən qrupların fikirlə təsirsiz hala gətirilməsidir. Çünki bu cür qruplar, **"Onlar həm insanları haqdan uzaqlaşdırır, həm də özləri ondan uzaqlaşırlar"** (Ənam surəsi, 26) ayəsində xəbər verildiyi kimi, yalnız özləri azmaqla kifayətlənməz, eyni zamanda bir çox insanı da azğınlığa sürükləyərlər.

Məsələn, cinsi azğınlıqların, fahişəliyin yayılması üçün səy göstərənlər, özləri azdıqları kimi, başqa insanları da azğınlığa sürükləyər. Ayədə belə buyurulur:

**Möminlər barəsində iyrənc şayiələrin yayılmasını istəyənlər üçün dünyada və axirətdə acılı-ağrılı bir əzab vardır. Allah bilir, siz isə bilmirsiniz. (Nur surəsi, 19)**

Əxlaqsızlığı yaymağa çalışanların axirətdə qarşılaşacaqları əzab, şübhəsiz cəhənnəmdir. Dünyada yaşayacaqları əzabın fərqli yolları ola bilər. Allah bu kəslərin üstünə müxtəlif bəlalar göndərə bilər. Quranda rəsulların əxlaqsızlığa qarşı apardıqları mübarizəyə hz. Lut (ə.s) və qövmü nümunə olaraq verilmişdir. Eynicinsli olan qövmünə

qarşı hz. Lut (ə.s)-ın etdiyi xəbərdarlıq və əxlaqsız qövmünün hz. Lut (ə.s)-a gələn cavabı belədir:

**Lutu da elçi göndərdik. Bir zaman o, öz qövmünə demişdi: "Sizdən əvvəl aləmlərdən heç kəsin etmədiyi iyrənc əməli sizmi edəcəksiniz? Siz, qadınları qoyub şəhvətlə kişilərin yanına gedirsiniz. Həqiqətən, siz, həddi aşmış adamlarsınız". Onun qövmünün cavabı: "Onları yurdunuzdan çıxarın. Axı onlar təmizliyə can atan adamlardır" - deməkdən başqa bir şey olmamışdı. (Əraf surəsi, 80-82)**

Başqa ayələrdə isə hz. Lut (ə.s)-ın öz qövmünə olan reaksiyası və qövmünün azğınlığı belə izah edilir:

**Lut tayfası da elçiləri yalançı saydı. O vaxt qardaşları Lut onlara dedi: "Məgər qorxmursunuz? Həqiqətən, mən sizin üçün etibar edilməli bir elçiyəm. Allahdan qorxun və mənə itaət edin! Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir. Doğrudanmı siz insanlar içində ancaq kişilərlə yaxınlıq edir və Rəbbinizin sizin üçün yaratdığı qadınlarınızı tərk edirsiniz? Siz, həqiqətən də, həddi aşan adamlarsınız". Onlar dedilər: "Ey Lut! Əgər təbliğatına son qoymasan, mütləq qovulanlardan olacaqsan!" O dedi: "Mən sizin əməllərinizə nifrət edənlərdənəm. Ey Rəbbim! Məni və ailəmi onların tutduqları işdən xilas et!" Biz onu və onun bütün ailəsini xilas etdik. Geridə qalanlar arasındakı yaşlı qadından başqa. Sonra da o birilərini darmadağın etdik. Biz onların üstünə daşlardan yağış yağdırdıq. Qorxudulanların yağışı nə yaman imiş! Şübhəsiz ki, bunda bir ibrət vardır. Lakin onların əksəriyyəti iman gətirmədi. Həqiqətən, sənin Rəbbin Qüdrətlidir, Rəhmlidir." (Şuəra surəsi, 160-175)**

# NƏTİCƏ

Qurana baxdığımızda bütün rəsulların və onlarla birlikdə iman edənlərin ortaq qədərə sahib olduqlarını görərik. Rəsulların liderliyindəki mömin birlikləri həmişə kiçik birlik olaraq mübarizəyə başlamışlar. Bu mömin birlikləri bir tərəfdən Allahın dinini təbliğ edərkən bir tərəfdən də özlərindən görünüşcə çox daha güclü olan düşmənlərə qarşı mübarizə aparmışlar. Və bu mübarizədən **"...Neçə-neçə az saylı dəstələr Allahın izni ilə çox saylı dəstələrə qalib gəlmişdir!" Allah səbir edənlərlədir"** (Bəqərə surəsi, 249) ayəsinin sirri ilə qalib olanlar həmişə rəsullar və möminlər olmuşdur. Rəsul və inkarçılar arasındakı bəhs etdiyimiz mübarizələrin hamısı Allahın yazdığı qədərə görə olar. Möminləri də, düşmənlərini də yaradan Allahdır. Quranda Allahın rəsullar üçün xüsusi düşmənlər yaratdığı xəbər verilir:

**Beləliklə, Biz hər bir peyğəmbər üçün insanlar və cinlərdən olan şeytanlarından düşmənlər müəyyən etdik. Bunlar aldatmaq məqsədilə bir-birlərinə təmtəraqlı sözlər təlqin edirlər. Əgər Rəbbin istəsəydi, onlar bunu etməzdilər. Onları uydurduqları şeylərlə birlikdə tərk et. (Ənam surəsi, 112)**

**Beləcə, Biz hər peyğəmbər üçün günahkarlardan bir düşmən etdik. Doğru yol göstəricisi və yardımçı kimi Rəbbin sənə yetər. (Furqan surəsi, 31)**

Mübarizənin hər iki tərəfini də Allah yaratdığına görə nəticəsini təyin edən də Odur. Və Allah rəsulların qədərində qalib gəlməyi yazmışdır. Quranda bildirildiyinə görə, rəsul üçün məğlub olmaq müzakirə mövzusu belə deyil:

**Allah əzəldən belə yazmışdır: "Mən və elçilərim hökmən qalib gələcəyik!"
Həqiqətən, Allah Qüvvətlidir, Qüdrətlidir. (Mücadilə surəsi, 21)**

Mömin birliyinin, zahirən məğlubiyyət kimi görünən hadisələr yaşamasının səbəblərindən biri isə, ancaq rəsula qarşı itaətsiz davranmalarıdır. Necə ki, Ali İmran surəsində izah edildiyinə görə, Uhud döyüşü əsnasında möminlərin bir qismi Peyğəmbərimiz (s.ə.v)-in əmrinə itaət etməmişlər və bu səbəblə də qazanılacaq kimi görünən döyüşdə məğlub olmuşlar. Amma bu müvəqqəti məğlubiyyətdir və möminlərin öyrədilməsini, daha itaətli olmalarına vəsilə olmuşdur. Nəticədə qalib gələnlər isə mütləq rəsul və onunla birlikdə iman gətirənlərdir. Rəsula qarşı düşmənçilik bəsləyənlərin sonu

isə eynidir: Dünyada alçaldılma və axirətdə cəhənnəm əzabı. Quranda, rəsula qarşı gələnlərin vəziyyəti belə bildirilir:

**Allaha və Onun Elçisinə qarşı çıxanlar, özlərindən əvvəlkilərin alçaldıqları kimi alçaldılacaqlar. Biz artıq açıq-aydın ayələr nazil etdik. Kafirləri alçaldıcı bir əzab gözləyir. O gün Allah onların hamısını dirildəcək və etdikləri əmərləri onlara xəbər verəcəkdir. Allah onları hesaba almış, onlar isə etdiklərini unutmuşlar. Allah hər şeyə şahiddir. (Mücadilə surəsi, 5-6)**

Buna qarşılıq rəsula tabe olan möminlər isə dünyada zəfər və hakimiyyətlə, axirətdə cənnətlə və hamısından ən əhəmiyyətlisi, Allahın rizası ilə mükafatlandırılarlar. Quranda rəsulun və onunla birlikdə iman edənlərin "Allahın firqəsi" olduğu bildirilir və bu kəslərin axirətdə alacaqları qarşılıq belə xəbər verilir:

**Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Elçisinə düşmən olanlarla - öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə - dostluq etsinlər. Allah onların qəlbinə iman salmış və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir. Allah onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər. Həqiqətən, məhz Allahın firqəsi nicat tapanlardır. (Mücadilə surəsi, 22)**

Başqa ayələrdə də rəsulların (və onların yolunu izləyən qövmlərinin) qəti olaraq qalib gələcəyi belə bildirilir:

**Bizim elçi göndərdiyimiz qullarımız haqqında bu Sözümüz əzəldən deyilmişdi: "Həqiqətən, onlara kömək göstəriləcəkdir. Bizim əsgərlərimizin mütləq qələbəsi labüddür". (Saffat surəsi, 171-173)**

Allahın izni ilə qalib gələcək olanlar, "Allahın tərəfdarlarıdır." Allahın sözü haqdır və şübhəsiz reallaşacaq.

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez

bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin

“Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. (“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)

Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.

- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.

- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.

-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən

məşhur təkamülçü prof. Lesli Orcel “Scientific American” jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

“Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir”. (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: “Növlərin mənşəyi, təbii seleksiya yolu ilə...”

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və “Növlərin mənşəyi” adlı kitabında: “Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz”, - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan

törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, “Növlərin mənşəyi” kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə “təkbaşına” və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast

gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

Australopithecus

Homo habilis

Homo erectus

Homo sapiens

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, c. 258, səh. 389)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “Homo sapiensə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. (J. Rennie, “Darwin’s Current Bulldog: Ernst Mayr”, Scientific American, Aralık 1992)

Təkamülçülər “ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. (S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar.

Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin

istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə

onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl

təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya

iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)

... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

Biz də Musaya: “Əsanı tulla!” - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!

Həqiqətən, Sən bilənsən, müdriksən!

(Bəqərə surəsi, 32)

Allah, tarix boyunca yaşamış olan bütün cəmiyyətlərə Öz ilahi mesajını çatdıracaq rəsullar göndərmişdir. Quranda da diqqət çəkildiyi kimi, bu peyğəmbərlərin bütün davranışları, əxlaqi xüsusiyyətləri, möminlər üçün nümunədir. Bu səbəblə hər mömin rəsulların yaşadıqlarını diqqətlə araşdırmalı və öyrənməlidir.

Rəsulların Quranda izah edilən mübarizələri də şübhəsiz bütün möminlər üçün işıqlandırıcı və yol göstəricidir. Bu kitabda verilən nümunələrlə peyğəmbərlərin gözəl əxlaqları və səmimi səyləri bir daha xatırladılır. Peyğəmbər hekayələrində iman edənlər üçün əhəmiyyətli dərslər olduğu Quranda belə bildirilir:

**Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. Bu Quran uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir.** (Yusif surəsi, 111)